

## Azərbaycan XİN Nikol Paşinyana cavab verdi

*Ermənistanın baş naziri Nikol Paşinyanın 4 may tarixində Çex Respublikasının baş naziri ilə birgə mətbuat konfransında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi, habelə guya Azərbaycanın Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməsi, Qarabağ bölgəsində humanitar böhran yaratdığı ilə bağlı dəfələrlə səsləndirdiyi cəfəng...*

Səh.3


# UNİKAL

№17 (2151) 5 may 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Əblüfəs Qarayev Avropadakı hotellərini satır

### Sabiq nazir xaricdəki biznesini niyə 2-3 ölkədə cəmləşdirmək istəyir?

*Azərbaycanın sabiq mədəniyyət naziri Əbülfəs Qarayev Avropanın iki ölkəsində, Adriatik dənizi sahillərində yerləşən hotellərini satmağa hazırlaşır. Bu barədə sabiq nazirə yaxın mənbələrdən bildirilib. İddialara görə, Qarayev ölkə xaricindəki biznesini komplektləşdirmək fikrindədir. Onun Rusiya, Litva, Panama, Türkiyə, Malta, Xorvatiya, Monteneqro kimi ölkələrdə şirkətləri var. Nazir postunu itirdikdən sonra Azərbaycandan çıxışına qeyri-rəsmi yasaq qoyulduğu iddia edilən Əbülfəs müəllimin bu səbəbdən də xaricdəki biznesini idarə etmək baxımından çətinliklərlə üzləşdiyi deyilir.*

Səh.8



Səh.9

## Danışıqların ABŞ raundu: Ermənistan küncə sıxılır, yoxsa...

## "Sülh yoxdursa, müharibə var"



*Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, ABŞ-da Azərbaycan və Ermənistan XİN rəhbərlərinin sülh müqaviləsinin imzalanması üçün apardıqları danışıqların əhəmiyyətindən, Ermənistanın sülhdən imtina edəcəyi...*

Səh.4

## Fuad Nağıyevin 10 milyard manatlıq optimizmi...



*Bu günlərdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev "Bakı KOB Evi"ndə keçirilən "Turizm biznesi: Mövcud vəziyyət və perspektivlər" adlı tədbirdə xeyli nikbin açıqlamalar verib. O deyib ki, 2026-cı ilə qədər ölkəyə gələn xarici turistlərin illik sayının 4 milyona, yerli turistlərin illik sayının...*

Səh.5

## "Bu, sahibkara ciddi problemyaradacaq" - Vahid Əhmədov



*"Yoxlamaların aparılması uzun müddət dayandırıla bilməzdi. Məsələlər öz həllini tapdıqdan sonra yoxlamalar davam etməlidir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında deputat Vahid Əhmədov deyib. Deputat bildirib ki, təklif olunan qanun...*

Səh.4

# "Məni riyakarlar yolumdan döndərə bilməyib" - Röya



*"Filmlə bağlı arzularım var. Sənədli yox, komediya janrında kinoya çəkilmək istəyirəm. Özüm orada olmalıyam. Çox lirikalar oxuyuram, amma bütün günü... 5 dəqiqə ağlayıb, 15 dəqiqə gülürəm".*

"Unikal" olay-a istinadən xəbər verir ki, bu sözləri Xalq artisti Röya Ayxan "Xəbər ətər" proqramına açıqlamasında deyib. R. Ayxan bildirib ki, komediyada yer almaq istəyir.

O, həmçinin popul kraliçası kimi üzərinə düşən məsuliyyətdən danışıb: "Bunu layiqincə daşıya və üzərimdə göstərə bilərəm. 25 ildə "dobriy" qala bilmişəm. Məni əziyyət, qorxular, yalan, riyakarlar öz yolumdan döndərə bilməyib".

# "Uşaq qatillərini edam etmək lazımdır" - Oksana Rəsulova



*Sumqayıtda Hacı Zeynalabdin qəsəbəsində yerləşən 19 nömrəli məktəbin idman zalında 7 yaşlı Fərid Bakarov idman məşqçisi Mehman Xəlilov tərəfindən kobud davranış nəticəsində ölüb. Bununla bağlı videogörüntü bir neçə gündür sosial şəbəkədə yayılıb. Bir çox sənət adamları da görüntüyə reaksiya verərək, onla bağlı paylaşım edib.*

"Unikal" xəbər verir ki, azyaşlının ölümü ilə bağlı paylaşım edənlərdən biri də rəqqasə-aktrisa Oksana Rəsulova olub. Oksana videoya baxarkən pis olduğunu bu sözlərlə ifadə edib: "Uşağa qarşı şiddət, zorakılıq və qətil eşidəndə, görəndə bunu edən vəhşilərə ölüm arzu edirəm. Yavaş-yavaş, əzablı, iztirablı, incidən ölüm. Belə hallarda bu vəhşiləri edam etmək lazımdır. Uşaq qatillərini edam etmək lazımdır. Əfsus ki, bizdə bu, yoxdur. Onu Allaha tapşırıram. Yarəbbim, o insanı cəzalandır. Mən özümə iki gündür gələ bilmirəm. O uşaq hər bir ananın balası idi".

Ölkə başçısına müraciət edən Rəsulova körpənin ölümünə səbəb olan məşqçiyə ən ağır cəzanın verilməsini istəyir: "Bir ana kimi sizə yalvarıram, o vəhşiyə ən ağır cəzanı verin. Çox şey yazardım, yaza bilmirəm, boğuluram".



# "Əxlaq geyimimizin metrəsi ilə deyil" - Mehin Hümbətova

*Müğənni Mehin Hümbətova açıq geyimləri tənqid edənlərə cavab verib.*

Axşam.az xəbər verir ki, yeni fotosessiyasını izləyiciləri ilə bölüşən ifaçı paylaşımına bunları qeyd edib: "Sənətin varsa, təqdim edəcəyin hər şey estetik görünür. Son zamanlar şou-biznes gündəmindən düşməyən əxlaq mövzularına fikir bildirmək istəyirəm: Əxlaq geyimimizin metrəsiylə deyil, düşüncələrimiz, niyyətimiz, ətrafa münasibətimiz və davranışımızla ölçülür. Geyim mövzusunu önə çəkib, özümüzə xal qazanmayaq".

# "Avroviziya" şərhçimiz o oldu

*"Avroviziya-2023" beynəlxalq mahnı müsabiqəsinin Azərbaycan üzrə şərhçi aparıcı Azər Süleymanlıya həvalə edilib.*

"Unikal" xəbər verir ki, bu barədə aparıcı instaqramda məlumat yayıb.

Qeyd edək ki, "Avroviziya 2023" mahnı müsabiqəsi bu il 9-13 may tarixlərində ötən il qalib gəlmiş Ukrayna adından Böyük Britaniyanın Liverpul şəhərində keçiriləcək. Azərbaycanı "Avroviziya-2023"də "Tell me more" mahnısı ilə Tural və Turan Bağmanov qardaşları təmsil edəcək.

# "Qadınlığımla qürur duyuram" - Tənqidlərə cavab verdi



*"Özümlə, qadınlığımla, insanlığımla qürur duyuram. Çox şükür, Allaha. Heç kimin haqqına girməyin".*

Bu sözləri müğənni Lətifə Soyuöz ünvanına tənqid yazanlara cavab verərkən deyib.

"Yaşadığımız hər gün, hər şey, ürəyimizin təmizliyi üçün şükürlər olsun. Kiminsə həyatı sizi maraqlandırmasın. Hər kəs öz həyatını yaşasın və qədrini bilsin. Dürüst olun. İlk əvvəl özünüzə dürüst olun, ətrafa olmasanız da olar" deyə, Lətifə əlavə edib.

# "Bir dovğama görə 500 dollar verən olub" - Ruhəngiz Allahverdiyeva

*"Bir dovğama görə mənə 500 dollar verən olub".*

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Əməkdar artist Ruhəngiz Allahverdiyeva Elgiz Əkbərin yutub layihəsində deyib.

"Mən dovğa satmıram. Hədiyyə edirəm, qarşılığında isə onu veriblər" deyə, müğənni bildirib. İfaçı daha sonra görücülük qabiliyyəti olduğunu deyib.

Qeyd edək ki, R.Allahverdiyeva aksessuarlar, güzgü düzəldib satır.

# Nazir 7 yaşlı Fəridin ölümündən danışdı



***"Məşqçilərin lisenziyalaşdırılması ilə bağlı federasiyalarla daim görüşürük".***

Bunu gənclər və idman naziri Fərid Qayıbov jurnalistlərə açıqlamasında deyib. Nazir tanınmış samboçu Mehman Xəlilovun bu yaxınlarda Sumqayıtda məşq zamanı tələbəsi olan 7 yaşlı Fərid Bakarova qarşı təhlükəli fənd işlədərək, onun ölümünə səbəb olmasına münasibət bildirib.

O, hadisəyə görə təəssüf hissi keçirdiyini söyləyib: "Baş verən hadisə hamımızı şoka saldı. Vəfat edən yeniyetmənin ailəsinə başsağlığı verirəm. Hadisə ilə bağlı istintaq gedir, bunun nəticəsini gözləməliyik".

Fərid Qayıbov əlavə edib ki, məşqçilərin lisenziyalaşdırılması və federasiyalar tərəfindən tanınması onlar üçün prioritetdir: "Təəssüf ki, bir çox hallarda məşqçilər federasiyaları tanımır. Bununla mübarizə aparırıq".

Gənclər və idman naziri vurğulayıb ki, idmançılar, məşqçilər və hakimlərlə bağlı yeni sistemin istifadəyə verilməsi yönündə işlər aparılır: "İnsanlar artıq bir yerdən daxil olaraq, həm idmançılar, həm məşqçilər, həm də hakimlər haqda məlumat əldə edə biləcəklər. Həmin sistemə məlumatları əlavə etmək bir az vaxt tələb edir".

Qeyd edək ki, məşq zamanı azyaşlının ölməsi faktı ilə bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Mehman Xəlilov iş üzrə şübhəli şəxs qismində həbs olunub.(Report)

# 5800 bağça müəlliminin təhsili yoxdur - Nazirlik

***Ötən bir il ərzində məktəbəqədər təhsil müəssisələrində sistemli təkmilləşdirmə işləri aparılıb, işçi heyətin məlumatları elektron bazalarda toplanılıb və təhlillər aparılıb.***



Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, dövlət məktəbəqədər təhsil müəssisələrində çalışan 11 300 nəfər tərbiyəçi-müəllimdən 51%-nin (5800 nəfər) məktəbəqədər təhsil sahəsi üzrə müvafiq ali və ya orta ixtisas təhsili yoxdur.

Qeyd edək ki, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsilli şəxslər tərbiyəçi-müəllim vəzifəsində çalışa bilərlər.

Elm və Təhsil Nazirliyi yaranmış problemin həlli üçün hazırda məktəbəqədər təhsil müəssisələrində çalışan şəxslərə təhsil sənədlərini aidiyyəti quruma təqdim etmək üçün imkan yaradıb. Sözügedən heyət tərəfindən müvafiq ixtisas üzrə təhsil sənədi təqdim edildiyi halda onların əməkhaqqı ödənişinin "Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas sorğu kitabçası"na əsasən ödənilməsi həyata keçiriləcək.

Məlumat üçün qeyd edək ki, Elm və Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunu elektron qaydada həyata keçirir, həmçinin məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu prosesi də ilk dəfə mərkəzləşdirilmiş müsabiqə yolu ilə təşkil olunaraq 102 nəfər işə qəbul edilib.

Hazırda sözügedən təhsil müəssisələrinə rəhbər heyətin mərkəzləşdirilmiş müsabiqə əsasında işə qəbulu ilə bağlı qaydalar hazırlanır. Həmçinin serifikatlaşmanın tətbiqi də əsas hədəflərdəndir.

# Əblüfəs Qarayev Avropadakı hotellərini satır

## Sabiq nazir xaricdəki biznesini niyə 2-3 ölkədə cəmləşdirmək istəyir?

***Azərbaycanın sabiq mədəniyyət naziri Əbülfəs Qarayev Avropanın iki ölkəsində, Adriatik dənizi sahillərində yerləşən hotellərini satmağa hazırlaşır. Bu barədə sabiq nazirə yaxın mənbələrdən bildirilib.***

İddialara görə, Qarayev ölkə xaricindəki biznesini komplektləşdirmək fikrindədir. Onun Rusiya, Litva, Panama, Türkiyə, Malta, Xorvatiya, Monteneqro kimi ölkələrdə şirkətləri var. Nazir postunu itirdikdən sonra Azərbaycandan çıxışına qeyri-rəsmi yasaq qoyulduğu iddia edilən Əbülfəs müəllimin bu səbəbdən də xaricdəki biznesini idarə etmək baxımından çətinliklərlə üzləşdiyi deyilir. Ona görə də eks-nazirin bir neçə ölkədəki şirkətlərini bağlayaraq 2-3 ölkədə biznes fəaliyyətini davam etdirmək istədiyi vurğulanır.



O da bildirilir ki, Qarayevin vidalaşmaq istədiyi ölkələrdən biri Xorvatiyadır. Belə ki, Xorvatiyanın Pula şəhərində onun üçmərtəbəli hotelinin olduğu məlumdur. Adriatik dənizinin sahilində yerləşən bu tarixi şəhər Avropanın ən maraqlı turizm məkanlarındandır. Şəhərin mərkəzində romalılar zamanında qladiator döyüşlərinin keçirildiyi Amfiteatr meydanı bütün dünyadan turistləri özünə cəlb edir. Koleziumun (dairəvi Amfiteatr arenası) yanında keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevə məxsus üçulduzlu, üçmərtəbəli "Amfiteatr" hoteli yerləşir. Əbülfəs Qarayev bu hotelə 14 il əvvəl sahib olub. O, həmin vaxt Azərbaycanın mədəniyyət və turizm naziri vəzifəsini icra edirdi.

Pulanın Amfiteatr küçəsi 6-da yerləşən hotel 18 nömrədən və geniş restorandan ibarətdir. Bura köhnə tarixi bina olub, lakin sonradan yerli dövlət orqanları binanın mühafizəsi şərtilə modernləşdirilməsinə icazə veriblər. O zaman Xorvatiya mediası yazırdı ki, hotel Azərbaycandan olan "biznesmenə" 1 milyon avroya başa gəlib.

Hoteli alan LK D.O.O. (LTD) şirkəti 2008-ci ildə Pulada, Mutvoranska-3 ünvanında 20 min xorvat kunası nizamnamə kapitalı ilə qeydiyyata alınıb. Daşınmaz əmlak alışı və satışı kateqoriyasında təsnifləşdirilmiş LK D.O.O-nun təsisçisi isə keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevin həyat yoldaşı Lalə Kazımovadır. Şirkətin adı (LK) da məhz onun ad-soyadının abbreviaturasından ibarətdir.

Şirkətin icraçı direktoru kimi Anar Nağıyevin adı sənədlərdə keçir. Anar Nağıyev Əbülfəs Qarayevin zamanında Mədəniyyət və Turizm Nazirliyində müşavir vəzifəsində çalışıb. A.Nağıyev sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyevin qardaşı oğludur.

Bir neçə il öncə Xorvatiya mediası Ə.Qarayevin hotelinə iki mənbədən - Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərindən vəsait yatırıldığını yazırdı. Bu isə o demək idi ki, Əbülfəs müəllim Azərbaycan mədəniyyətinə ayrılan dövlət vəsaitlərinin talan edilməsi hesabına əldə edilən pulları xaricə daşıyırmış.

Sabiq nazirin satmağa hazırlaşdığı başqa bir hotel Monteneqroda yerləşir. Qarayevin xanımı orada "L.K.Montenegro" şirkətini açıb və həmin şirkət vasitəsilə bu ölkədə də hotel alınıb. Bu hotelin Adriatik sahilindəki kiçik kurort şəhəri Herseq Novidə, Srbina küçəsi 1-də aldıqları bağ-bağatlı iri mülkdən ibarət olduğu deyilir. Şirkətin özü isə 2018-ci ildə ləğv edilib.

Sabiq nazirin Herseq Novidəki şirkətinin direktoru qismində Abbas Fatullayev adlı şəxsin adı keçib. O, Qarayev ailəsinin Azərbaycanda təsis etdiyi "Gals" MMC-nin də qanuni təmsilçisidir.

Ümumiyyətlə isə, iddialara görə, eks-nazirin ölkəmizdən kənardakı hotellərinin coğrafiyası xeyli genişdir. Məsələn, onun Malta və Bodrumda da hotellərinin olduğu məlumdur. Hərçənd, Qarayev vəzifədə olarkən bu barədə yayılan məlumatları inadla təkzib edirdi. Belə ki, açıqlamalarının birində "Mən dövlət qulluğu haqda qanuna riayət edirəm" deyə söyləyən eks nazir vəzifəli şəxsin dövlət qulluğu haqqında qanuna riayət etməli olduğunu vurğulamışdı. Sitat: "Dövlət qulluğu haqqında qanun var, şəxsən mənim nə otelim var, nə də şirkətim var. Yəni şəxsən mən deyə bilərəm ki, buna riayət edirəm. Mən eşitməmişəm ki, hansısa nazirin, hansısa məmurun adının üstündə hansısa otel varg"

Lakin DTX-nin apardığı xüsusi əməliyyat nəticəsində Qarayevin rəhbəri olduğu dövrdə Mədəniyyət Nazirliyində nəhəng korrupsiya şəbəkəsi üzə çıxdı. Medianın araşdırmaları isə bu korrupsiya pulları hesabına keçmiş nazirin nəinki Azərbaycanda, onun hüdudlarından yaxın-uzaq xaricdə belə çoxsaylı şirkətlər açıldığını, daşınmaz əmlaklar, o cümlədən, hotellər alındığını ortaya qoydu.

Hərçənd, gözlənilirdi ki, Qarayev özü də aşkarlanan maliyyə cinayətlərinə görə qanunlar qarşısında cavab versin, ancaq bu ehtimal özünü doğrultmadı. İndi onun yalnız ölkədən çıxışına məhdudiyyət qoyulduğuna dair rəsmi təsdiqlənməmiş məlumatlar dolaşır. Lakin eks-nazir Bakıda oturaraq da ölkədən kənardakı biznesini idarə edə bilir. Sadəcə, şirkətlərinin çox fərqli ölkələrdə mövcudluğu ona müəyyən çətinliklər yaradır ki, sabiq nazir, deyəsən, bu problemi də çözməyin yolunu tapıb - təxminən 7-8 ölkədəki biznesini 2-3 ölkədə cəmləşdirməklə...

***Toğrul Əliyev***

# Danışıqların ABŞ raundu: Ermənistan küncə sıxılır, yoxsa...

***Mayın 1-dən başlayaraq Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın XİN başçısı Ararat Mirzoyan arasında sülh sazişinin bağlanması ilə bağlı danışıqlar aparılır. Vaşinqtonda keçirilən görüşlərin sabah başa çatacağı, yekun müzakirələrdə ABŞ dövlət katibi Entoni Blinkenin də iştirak edəcəyi gözlənilir. Danışıqların detalları hələlik məlum deyil. Lakin ABŞ tərəfindən verilən mesajlarda müsbət nüanslar diqqət çəkir.***

“Biz Ermənistan və Azərbaycanın danışıqlarda əldə etdiyi irəliləyişi alqışlayırıq və dialoqun davam etdirilməsini təşviq edirik. Davamlı və ədalətli razılaşma hər iki ölkə və region üçün imkanların açılmasında əsas olacaq”, - ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın XİN başçısı Ararat Mirzoyanla görüşdən sonra tviter hesabında yazıb.

Prezident İlham Əliyev ötən gün Şuşada keçirilən beynəlxalq konfransda çıxışı zamanı Vaşinqton görüşünə də toxunub. Dövlət başçısı deyib: ”Biz onlara (Ermənistana) sülh sazişinin layihə variantının dörd nüsxəsini, dörd yeni variantını göndərdik. Onlar öz qeydlərini bildirdilər. Biz onların sonuncu şərhini qırx gündən çoxdur ki, gözləyirdik. Biz bu şərhi, sadəcə, bir həftə bundan əvvəl aldıq. Bu da Vaşinqtondakı görüşdən əvvəl idi, çünki onlar onsuz da Vaşinqtondakı görüşün mənasız olduğunu başa düşdülər”.

Maraqlıdır ki, artıq erməni mediası Vaşinqtondakı danışıqların Ermənistanın məğlubiyyəti ilə başa çatacağını yazır. ”Hraparak” qəzeti Vaşinqtonda keçirilən Bayramov-Mirzoyan danışıqlarından daxili məlumatlar əldə edib və bu detallar erməni tərəfi məyus edir. Nəşr qeyd edir ki, Birləşmiş Ştatlar tərəfləri münasibətlərin normallaşmasına dair saziş imzalamağa sövq etməyə çalışır, lakin bu, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması və Bakıya qarşı ərazi iddialarından imtina etməsi ilə baş verir. ”Eyni zamanda, Ermənistan tərəfi hələ ki, Azərbaycanı Ermənistana iddialarından əl çəkməyə inandıra bilməyib. Mənbəmiz konkret olaraq hansı ərazilərdən danışdıqlarını açıqlamayıb, amma aydındır ki, söhbət anklavlardan gedir”, - qəzet qeyd edir. Təbii ki, söhbət Qazax rayonunun bir neçə kəndindən, keçmiş AzSSR-in Ermənistan ərazisindəki eksklavlarından gedir. Erməni jurnalistlərin dərc etdiyi məlumatlar isə Azərbaycanın Vaşinqtonda qalib gəldiyini təsdiqləyir.

Məsələ ilə bağlı ”Unikal”a açıqlama verən politoloq Qabil Hüseynli Vaşinqton görüşünün mümkün nəticələri ilə bağlı danışarkən bildirib ki, proses intensiv şəkildə aparılır: ”Hazırda tərəflərin mövqelərinin bir-birinə maksimum yaxınlaşdığı dövrdəyik. İlkin nəticələr də var. Zənnimcə, bu görüşdən sonra mütləq bir sənəd imzalanacaq. Bu sənəd münasibətlərin tənzimlənməsinə dair saziş ola bilər. Həmin sazişdə gələcəkdə imzalanacaq sülh müqaviləsinin prinsipial məqamları əks olunacaq. Təkcə Vaşinqton görüşü ilə bağlı yox, həmçinin Ermənistan baş naziri Nikol Paşinyanın son günlər parlamentdə etdiyi çıxışlarına əsaslanaraq deyə bilərəm ki, Ermənistan əvvəlki destruktiv mövqeyindən xeyli uzaqlaşıb. Düşünürəm ki, Ermənistan tərəfi konstruktiv adlandırıla biləcək mövqeyə yaxınlaşıb. Ermənistan siyasi rəhbərliyi öz uydurma tarixi ilə bağlı fikirlərlə vidalaşmaq qərarına gəlib. Həm regiondakı problemlərə, həm də dünyada gedən digər proseslərə reallıqla yanaşmağa başlayıb. Mən proseslərə nikbin yanaşıram və sülh müqaviləsinin ərsəyə gələcəyinə, hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıyacağına, Qarabağın ermənilər yaşayan hissəsində vəziyyətin nisbətən sabitləşəcəyinə inanıram”, - deyə o qeyd edib.

Q. Hüseynli həmçinin deyib ki, Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar prosesində Rusiya öz destruktiv mövqeyini tutmağa davam edir: ”Rusiya regionu bulandırmaq və çalxalamaq istəyir. Buna baxmayaraq, Rusiya əvvəlki gücdə deyil. Buna yetəcək imkanları minimum səviyyədədir. Üstəlik, hər iki ölkə, həm Azərbaycan, həm də Ermənistan bu destruktiv addımlara qarşı hazırdır. Yəqin ki, Vaşinqton görüşündən sonra Rusiya tərəfləri Moskvada görüşdürmək fikrinə düşə bilər. Onlar Üçtərəfli Bəyanatı əsas gətirərək bu görüşün keçirilməsinə nail ola bilərlər, amma Vaşinqtonda nəticə əldə olunacaqsa, bundan sonra Rusiyanın cəhdləri nəticəsiz qalacaq. Nə qədər cəhd etsələr də, bu prosesi poza bilməyəcəklər”.



Milli Məclisin deputatı Sahib Alıyev son danışıqlar prosesi barədə fikirlərini bildirib. O deyib ki, Vaşinqton danışıqlarının necə bitəcəyi haqda orada nə baş verdiyindən hər kəsdən daha çox xəbərdar olan Azərbaycan Prezidenti cənab İlham Əliyevin artıq ilkin açıqlaması var. Onun qənaətincə, Şuşada “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda keçirilən dünənki beynəlxalq konfransda səsləndirlən həmən açıqlama elə də nikbin deyil: “Səbəbinə də dövlət başçımız yenə özü aydınlıq gətirdi. O bildirdi ki, qarşı tərəf Azərbaycanın terrorizm, ekstremizm, radikalizm və separatizmə qarşı birgə mübarizə haqda təklifinə cavabında “separatizm” sözünün üstündən xətt çəkib. Bu, nə deməkdir? O deməkdir ki, Ermənistan Azərbaycana qarşı torpaq iddialarına son qoymaq niyyətində deyil. Vaşinqton danışıqlarının arzulanan şəkildə bitəcəyi haqda bir halda əminliklə danışmaq olardı ki, onun təşkilatçısı ədalətli demirəm, çünki dünyada hegemonluq edən, yaxud da buna can atan hər hansı bir gücdən ədalət gözləmək sadəlövlükdür, beynəlxalq hüquq və normaların prinsipial tərəfdarı kimi çıxış etsin. ABŞ-ın hərəkətlərində isə biz bunu görmürük.

Sözü gedən ölkənin bu yaxınlarda açıqlanmış Təhlükəsizlik Strategiyasında Ukrayna və Gürcüstanın ərazi bütövlüyünün təşviq edilməsi vurgulandığı halda bizimkinə yanaşmada eyni mövqe sərgilənmir. Orada sadəcə Ermənistanla Azərbaycan arasında sülhün təşviqindən söhbət gedir. Soruşuram, nəyə əsaslanan sülhün? Ermənistanın Azərbaycana qarşı torpaq iddiasına dayanan sülhümü ABŞ nəzərdə tutur? Belə deyilsə, nədən öz səfirini Şuşaya göndərmir və Qarabağın Azərbaycan torpağı olmasını açıq şəkildə dilə gətirmir?

Cənab İlham Əliyevin də Şuşada vurğuladığı kimi çox təəssüf ki, Ermənistan özü indi bizim ərazi bütövlüyümüzü tanımağa “Qərbdəki bəzi dostlarından” daha meylli görünür və ötən ilin oktyabrındakı Praqa, Soçi Bəyannamələri də təsdiqləyir ki, “A” deyən rəsmi İrəvan “B” də deyə bilər. Əlbəttə, əgər Praqa görüşündə Paşinyana yandaşlıq edən Makronun ölkəsi Fransa, yaxud da Soci görüşünü təşkil edən Rusiya və digərləri maneçilik törətməsələr. Amma törədirlər. Fransanın Ermənistandakı revanşizm tərəfdarlarından daha çox revanşist hərəkətləri, Kremlin sözçüsü Peskovun Vaşinqton görüşü haqda son açıqlaması məhz bunu deməyə əsas verir”.

Millət vəkili onu da vurğulayıb ki, Azərbaycan Prezidenti çoxtərəfli yox, Ermənistanla ikitərəfli danışıqlar aparmağın daha önəmli və belədə real nəticələrin əldə edilməsi perspektivinin daha yüksək olduğunu bildirir: “Dövlət Departamentinin təmsilçisi Vedant Patelin dedikləri də göstərir ki, effektlilik baxımından onlar da birbaşa dialoqa üstünlük veirirlər. Yeri gəlmişkən, Vaşinqton danışqları zamanı eşitdiyim ən önəmli açıqlama Antoni Blinkenin milli azlıqlar probleminin sonrakı mərhələdə həlli ilə bağlı sözləridir. Mən belə başa düşürəm ki, ABŞ artıq Qarabağdakı hayların orada qalıb təhlükəsiz yaşamaları üçün Qərbi azərbaycanlıların da öz yurd yerlərinə qayıtmalarının önəmliliyini anlayır. Və onu da anlayır ki, onların da Ermənistanda hüquq və təhlükəsizlikləri təmin edilməlidir. Orasını da deyim ki, bəzi dövlətlər sülh anlaşması olmadan Azərbaycanla Ermənistan arasında kommunikasiyaların açılması və əməkdaşlığa başlanması haqda da düşünürlər. Ancaq Azərbaycan Prezidentinin dünən Şuşada dediklərindən də aydın görünür ki, buna getməyəcəyik. Niyə də getməliyik? Bizə qarşı düşmənçilik siyasəti yeridənlərin güclənib yenidən torpaqlarımızı işğal etmək fikrinə düşmələri üçünmü? Ona görə də dövlət başçımızın da bildirdiyi kimi Ermənistan sülh anlaşmasını imzalamayacağı təqdirdə, torpaqlarımız işğal altında olarkən həmin ölkəyə qarşı hansı siyasət yeridilmişdisə eynisi yeridiləcək. Yəni o, yenə də təcrid vəziyyətində saxlanacaq”.

***Murad İbrahimli***

# Naxçıvanda bu xidmət rəisi işdən çıxarıldı




***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti Publik hüquqi şəxsinin rəisi işdən azad olunub.***

"Unikal" xəbər verir ki, xidmətin rəisi Əli Hüseynəliyev bu gün vəzifəsindən azad edilib.

Bu vəzifənin icrası müvəqqəti olaraq rəis müavini Mazan Fərəcova həvalə edilib.

# Sahibə Qafarova III Çarlzın tacqoyma mərasimində iştirak edəcək



***Milli Məclisin sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya kralı III Çarlzın tacqoyma mərasimində iştirak etmək məqsədilə mayın 4-də bu ölkəyə işgüzar səfərə gedib.***

"Unikal" xəbər verir ki, Londonun "Luton" beynəlxalq hava limanında Azərbaycan parlamentinin rəhbərini Kralın nümayəndəsi Ruth Bell, Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinin təmsilçisi Nik Karter, Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanov və digər rəsmi şəxslər qarşılayıblar.

# Aİ Azərbaycanla əməkdaşlığı gücləndirməkdə maraqlıdı.

***Avropa İttifaqı (Aİ) Azərbaycanla əməkdaşlığı gücləndirməkdə maraqlı olduğunu təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu məsələ mayın 3-də Brüsseldə keçirilən IV Aİ-Azərbaycan Təhlükəsizlik Dialoqunun iclasında müzakirə edilib.

İclas Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibinin siyasi məsələlər üzrə müavini Enrike Mora və Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin həmsədrliyi ilə keçirilib.

Bildirilib ki, görüş iştirakçıları Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, regional təhlükəsizlik ilə bağlı məsələləri və regionda sülhün, sabitliyin qorunmasında Aİ-nin rolunu müzakirə ediblər.

Bundan başqa, xarici siyasət, təhlükəsizlik və mümkün gələcək əməkdaşlıq, o cümlədən kibertəhlükəsizlik və hibridtəhlükəsizliyə qarşı mübarizə, ekstremizm və terrorizmlə mübarizə, kosmik fəaliyyət sahəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında konstruktiv müzakirələr aparılıb.

Görüşdə Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi rolu qeyd olunub.

"Aİ Azərbaycanla xarici və təhlükəsizlik siyasəti məsələlərində əməkdaşlığın gücləndirilməsində maraqlı olduğunu, xüsusilə Rusiyanın Ukraynaya qarşı müharibəsi nəticəsində yaranmış hazırkı çətin beynəlxalq şəraitdə sülh, təhlükəsizlik və sabitlik naminə işləməyə hazır olduğunu təsdiqləyib. Aİ sabit və dinc Cənubi Qafqazın dəstəklənməsinə töhfə vermək məqsədini rəhbər tutur. Aİ-nin əsas marağı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına dəstək verməkdir. Aİ Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin yardımı ilə üçtərəfli Brüssel formatı da daxil olmaqla, sülh prosesini dəstəkləməyə hazırdır", - E.Mora bildirib.

Hikmət Hacıyev Azərbaycanın Aİ-nin regionda etibarlı tərəfdaşı olduğunu vurğulayıb: "Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Üstəlik, Azərbaycan regionda sülh və sabitliyi fəal şəkildə təşviq edir, terrorizm, radikalizm, qeyri-qanuni miqrasiya və narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə qlobal səylərə dəstək göstərir".

O xatırladıb ki, hazırda Azərbaycan öz ərazilərində misli görünməmiş miqyasda yenidənqurma və humanitar minatəmizləmə işləri aparır: "Biz minatəmizləmə sahəsində Aİ-nin maliyyə dəstəyini yüksək qiymətləndiririk. Azərbaycan Ermənistana ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsinin beş əsas prinsipini təqdim edib. Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüslərini, o cümlədən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin köməyi ilə Brüssel sülh prosesini dəstəkləyir".

Görüşün sonunda Aİ və Azərbaycan nümayəndələri hər iki tərəf və bütün region üçün aktual olan məsələlər üzrə mütəmadi fikir mübadiləsini davam etdirmək barədə razılığa gəliblər.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Kamran Əliyev Səlcuq Bayraktarla görüşüb

***Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İstanbul şəhərində işgüzar səfərdə olub.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, mayın 4-də nümayəndə heyəti tərəfindən Ulu Öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün Sarıyerdəki abidələri ziyarət edilərək, əziz xatirələri ehtiramla yad edilib.

Beynəlxalq konfransın bağlanış sessiyasında yekun nitqi ilə çıxış edən Baş prokuror Türkiyə tərəfinə yüksək qonaqpərvərliyə və peşəkar təşkilatçılığa görə təşəkkürünü ifadə edərək, 21-ci əsrdə rəqəmsal cinayətkarlıqla mübarizədə prokurorların beynəlxalq əməkdaşlığının vacib rolunu bir daha qeyd edib.



Elə həmin gün Kamran Əliyev türkiyəli həmkarı Bekir Şahinlə ikitərəfli görüş keçirib. Görüşdə 2021-ci ilin noyabrın 1-də Bakıda təsis edilmiş Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ikinci iclasının cari ilin noyabr ayında Ankara şəhərində təşkil olunması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Həmçinin, İstanbul şəhər Baş prokuroru Şaban Yılmazla keçirilən görüşdə cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Bundan başqa, nümayəndə heyətimiz Səudiyyə Ərəbistanı, Mərakeş, Tayland, Gürcüstan, Bəhreyn, Avstriya, Bolqarıstan və digər xarici həmkarları və beynəxalq təşkilatların nümayəndələri ilə görüşərək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Səfər çərçivəsində "Baykar" zavodunu ziyarət edən Baş prokuror şirkətin rəhbəri Səlcuq Bayraktarla görüşüb. Kamran Əliyev Azərbaycan Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsi zamanı düşmən texnikasının məhv edilməsində şirkətin istehsal etdiyi məhsulların xüsusi rolunu vurğulayaraq Türkiyənin müdafiə sənayesinin çox böyük nailiyyətlər əldə etdiyini qeyd edib.

Nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri başa çatıb.

# Azərbaycan XİN Nikol Paşinyana cavab verdi

***Ermənistanın baş naziri Nikol Paşinyanın 4 may tarixində Çex Respublikasının baş naziri ilə birgə mətbuat konfransında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi, habelə guya Azərbaycanın Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməsi, Qarabağ bölgəsində humanitar böhran yaratdığı ilə bağlı dəfələrlə səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Çex Respublikasında mətbuat konfransı zamanı səsləndirdiyi iddialarla bağlı şərhində bildirilib.

Qeyd olunub ki, Azərbaycanın öz suveren ərazisində yaratdığı və erməni sakinlərin artıq şəffaf şəkildə hər iki istiqamətdə keçməyə başladığı "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis etməsi məsələsinə hər hansı bir şərh qəbuledilməzdir.

Ermənistan tərəfi Azərbaycanın daxili işlərinə qarışmağa və uzun illər ərzində Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasətə son qoymalıdır.

"Etnik təmizləmə" barədə baş nazirin cəfəng fikirlərinə gəldikdə isə qeyd edək ki, tarix boyu azərbaycanlılara qarşı xüsusi qəddarlıqla kütləvi qırğınlar, deportasiyalar siyasətinin, əməllərinin etiraf edilməsi və üzrxahlıq dilənməsi əvəzinə, Azərbaycanı belə əməllərdə təqsirləndirmək tarixdən dərs çıxarmamağın göstəricisidir.



Ermənistan tərəfinin sülh sazişi üzrə danışıqların davam etdiyi bir vaxtda bu kimi bəyanatlarla çıxış etməsi sülhə xidmət etmir.

# "İxtisas sənədi olmayan işləyən tərbiyəçi-müəllimlər işdən çıxarılmayacaq" - Nazir

***"5800 tərbiyəçi-müəllimin müvafiq ixtisas sənədi olmadan işləməsi 20-30 il ərzində baş verən prosesdir".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, dəqiq rəqəmlərin olması diplomların ilk dəfə məlumat bazasında toplanması ilə əlaqədardır: "Bu toplamadan sonra bütün uyğunsuzluqlar üzə çıxır. Sistemdə üç qrup insan var. Bir qrupun ali pedaqoji təhsili var, amma o, məktəbəqədər deyil. İkinci qrup insanların ali təhsili var, amma pedaqoji deyil. Məsələn, mühəndis,



maliyyəçidir. Üçüncü qrup insanlar var ki, onların bizdə sənədi yoxdur. Ola bilər ki, sənədləri var, amma bizim sistemdə yoxdur.

Təqdim etməyibsə, biz ona ən aşağı dərəcə ilə maaş veririk. Sənədlərin təqdim edilməsi vacibdir".

Nazir uzun müddət həmin müəllimlərə ixtisas səviyyələri hesablanmadan əmək haqqı ödənildiyini xatırladıb: "Məsələni qanunvericiliyə uyğun olaraq qaydaya salmağa çalışırıq. Bu, heç bir halda müəllimlərin, tərbiyəçilərin kütləvi ixtisarı anlamına gəlmir. Tədricən mərhələli şəkildə diaqnostika və sertifikasiya həyata keçirilməklə müəyyən qaydaya alınır. Düşünürəm ki, yavaş-yavaş məsələni qaydasına qoyacağıq".

Qeyd edək ki, nazirlik bu gün 5800 tərbiyəçi-müəllimin müvafiq ixtisas sənədi olmadan işlədiyini açıqlayıb.

# Zakir Həsənov Rusiya sülhməramlılarının yeni komandanını qəbul etdi

Mayın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-polkovnik Aleksandr Lentsovu qəbul edib.

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti müzakirə olunub.



# Prezident İlham Əliyev Qarabağda böyük qayıdış üçün möhtəşəm təməl qoydu

***Ötən gün Prezident İlham Əliyev Laçın, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarına səfər edib.***

"Unikal" xəbər verir ki, ilk öncə Laçına səfər edən dövlət başçısı Güləbird kənd yaşayış məntəqəsinin təməlini qoyub.

Bundan sonra Qubadlı rayonuna gedən Prezident İlham Əliyev orada ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib. ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Mənzillərdən 48-nin ikiotaqlı, 68-nin üçotaqlı, 20-sinin dördotaqlı və 20-sinin isə beşotaqlı olması planlaşdırılır. Binaların inşasında müasir memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq.

Məhəllədə idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Bundan başqa, Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının təməlinin qoyulması mərasimi də keçirilib. Məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. Təhsil ocağı və ona məxsus açıq ərazilər yaşayış sahələri ilə əhatə olunacaq. Məktəbin həyətyanı ərazisindəki idman qurğularından və oyun meydançalarından axşamlar və həftə sonları ictimaiyyət nümayəndələri də istifadə edə biləcəklər.

Qeyd edilib ki, məktəb binası modul tipli sinif otaqlarından istifadə olunmaqla layihələndirilib. Təbii işıqla işıqlandırılmış daxili məkanlar məktəbin enerji tələbatını minimuma endirəcək. Binanın strukturu uyğunlaşan sistemdir və şəhərin böyüməsi ilə bağlı şagird sayı artdıqca genişləndirilə bilər.

Dövlətimizin başçısı məktəb binasının təməlini qoyub.

Həmçinin, Qubadlıda 91 çarpayılıq Mərkəzi Xəstəxana binası da tikiləcək. 4,5 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq.

Prezident İlham Əliyev xəstəxana binasının təməlini qoyub.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Qubadlı rayonunun Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin, həmçinin inzibati binanın təməlqoyma mərasimində iştirak edib.

Daha sonra dövlət başçısı Zəngilan rayonuna səfər edib. Orada Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub. Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.

İnzibati bina Zəngilan şəhərinin mərkəzində, əsas küçələrin kəsişməsində yerləşir. Bu ərazi əsas ictimai obyektlərə, təhsil müəssisələrinə, peşə məktəbinə, memorial parka və məscidə yaxındır. Qeyd olunub ki, üçmərtəbəli bina quruluşuna görə şəhərin müxtəlif yerlərindən görünə biləcək. İnzibati binanın daxili atrium quruluşda layihələndirilib. Binanın ardıcıl quruluşu isə iki hissəni birləşdirir. İnzibati binanın külək turbinləri şəklində olan fasad strukturu damın kənarı boyunca düzülüb. Dam örtüyü günəş panelləri ilə əhatə olunur. Damın quruluşu binanın daxilinin təbii işıqlanmasına imkan verir və böyük tədbirlərin keçirilməsi üçün əlavə yer imkanı yaradır.

Bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələrinin fəaliyyət göstərəcəyi binada müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri yaradılacaq. İnzibati binanın ətrafında müxtəlif istirahət məkanları və iaşə obyektləri fəaliyyət göstərəcək.

Layihə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev inzibati binanın təməlini qoyub.

Bundan başqa, İlham Əliyev "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

Bildirilib ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su Elektrik Stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur.

Həmçinin, mayın 4-də Zəngilanda otel kompleksinin təməlqoyma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına kompleksin layihəsi barədə məlumat verib.

Bildirilib ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Otel müasir səviyyədə inşa olunacaq, rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırılıb ki, 110 nömrədən ibarət olacaq otel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. Otel kompleksinin ərazisində, həmçinin 15 kottec də qonaqların istifadəsinə veriləcək.

Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi otel kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev otel kompleksinin təməlini qoyub.

Eyni zamanda, dövlət başçısı Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak edib. Prezidentə xəstəxana binasının layihəsi barədə məlumat verilib.

Prezident İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub.

Mayın 4-də Zəngilan rayonunun Cahangirbəyli kəndinin təməlqoyma mərasimi də keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Bildirilib ki, kəndin layihələndirilən ərazisi 179,5 hektardır. Kənd perspektivdə 2520 nəfər əhalinin (573 ailə) yaşaması üçün planlaşdırılıb. Cahangirbəyli kəndində birinci mərhələdə iki, üç, dörd və beş otaqlı olmaqla ümumilikdə 242 fərdi evin tikintisi nəzərdə tutulur.

Qeyd edilib ki, birinci mərhələdə burada 1200 nəfərin məskunlaşdırılması planlaşdırılır. Cahangirbəylidə fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binaların inşası da nəzərdə tutulur.

Prezident İlham Əliyev Cahangirbəyli kəndinin təməlini qoyub.

Zəngilan rayonundan sonra İlham Əliyev Cəbrayıl rayonuna səfər edib və orada Xudafərin qəsəbəsinin təməlinin qoyulması tədbirində iştirak edib. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verib.

Prezident İlham Əliyev Xudafərin qəsəbəsinin təməlini qoyub.

Bundan başqa, dövlət başçısı Cəbrayılda 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını edib.

Dövlət başçısı "Cəbrayıl" qovşaq yarımstansiyasını işə salıb.

Həmçinin, İlham Əliyev Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoyub. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına sənaye parkında görülən işlər barədə məlumat verib.

Prezident İlham Əliyev Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub.

Daha sonra Prezident İlham Əliyev Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verilib.

Bildirilib ki, Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev Cəbrayıl şəhərində inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə də tanış olub.

Dövlət başçısına məktəb binasında görülən işlərlə bağlı məlumat verilib.

Bildirilib ki, 960 yerlik yeni məktəb binasının inşasına 2021-ci ilin oktyabrında başlanılıb. Burada şagirdlərin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq.

Məktəbin həyətində geniş idman meydançası yaradılacaq ki, bu da sağlam gənc nəslin yetişməsi üçün vacib amillərdəndir.

Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər 145 yaşlı orta ümumtəhsil müəssisəsinin ən müasir tələblərə cavab verən yeni binasında təhsil alacaqlar.

Onu da qeyd edək ki, İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin təməlini qoyub.Əvvəlcə kənddə görüləcək işlər və yaradılacaq şərait barədə videoçarx nümayiş olunub.

Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verilib.





## "Bu, sahibkara ciddi problemyaradacaq" - Vahid Əhmədov

***"Yoxlamaların aparılması uzun müddət dayandırıla bilməzdi. Məsələlər öz həllini tapdıqdan sonra yoxlamalar davam etməlidir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında deputat Vahid Əhmədov deyib.

Deputat bildirib ki, təklif olunan qanun layihəsində yoxlama obyekti anlayışında qohumlarla bağlı hissə var: "Hamısın qohumlar anlayışına yığmısız. Ögey bacı, qardaş, övladlığa götürülən və s. Bu, sahibkar üçün çox ciddi problemə gətirib çıxara bilər. Bu anlayışa baxmaq və yenidən vermək lazımdır", - deyə V.Əhmədov qeyd edib.

## "Bəzi sahibkarlar fırıldaqçılıqla məşğul olurlar" - Deputat

***"Bəzi sahibkarlar fırıldaqçılıqla məşğul olurlar. Yalan vədlər verirlər, insanları incidirlər, pul alırlar, işi görmürlər".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında deputat Rüfət Quliyev deyib.

"Bu hallara daha çox tikinti şirkətlərində rast gəlinir", - deyə deputat bildirib.

R.Quliyev qeyd edib ki, yoxlamaların məhdudlaşdırılması bəzi işbazlara şərait yaradıb: "Xaricdən bura keyfiyyətsiz malları gətirən, bizə genetik ziyan vuran şirkətlərin qabağı alınmalıdır".

*Anar Kəlbiyev*

## Azərbaycanlıların Sudandan təxliyəsi başa çatdı

***Sudandan 26 Azərbaycan vətəndaşının təxliyəsi başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib.

"Sudan Respublikasından 26 nəfər Azərbaycan Respublikası vətəndaşının qardaş Türkiyə Respublikasının dəstəyi ilə ölkəmizə təxliyə olunub", - deyə o qeyd edib.

Xatırladaq ki, Suveren Şuraya rəhbərlik edən Sudan ordusunun komandanı Əbdül Fəttah əl-Burhanla həmin şurada onun müavini olan xüsusi təyinatlı qüvvələrin başçısı Məhəmməd Həmdan Daqalo arasında fikir ayrılığı səbəbindən ölkədə vəziyyət gərginləşib. Aprelin 15-də Merove şəhərindəki hərbi baza yaxınlığında və paytaxt Xartumda iki güc strukturu arasında toqquşmalar başlayıb. Sudan Səhiyyə Nazirliyinin məlumatına görə, ölkədə toqquşmalar nəticəsində ölənlərin sayı 528-ə çatıb, 4600-ə yaxın yaralı var.

# "Sülh yoxdursa, müharibə var"

## Fazil Mustafa: "Danışıqların bir sülh müqaviləsi ilə yekunlaşmasını söyləmək sadəlövhlük olar"

***Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, ABŞ-da Azərbaycan və Ermənistan XİN rəhbərlərinin sülh müqaviləsinin imzalanması üçün apardıqları danışıqların əhəmiyyətindən, Ermənistanın sülhdən imtina edəcəyi halda nə ilə üzləşəcəyindən, İran-Azərbaycan münasibətlərinin nə zaman normallaşacağından və Zəngəzur dəhlizinin açılmasına kimlərin mane olmasından danışıb.***

***- Fazil bəy, ötən gün Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyan arasında Vaşinqtonda aparılan ikitərəfli danışıqlar başa çatıb. Necə düşünürsüz, bu danışıqlar sülh müqaviləsinin imzalanmasına nə kimi töhfə verəcək?***

- Danışıqlar bir müddət davam edir və onun nəticəsi olaraq sülh müqaviləsi ya ortaya çıxır, ya da çıxmır. Hər halda danışıqlar aparılmalı, mövqelər aydınlaşdırılmalıdır. Bu həm də sıradan danışıqlar deyil. Belə ki, dünyanın əsas aparıcı gücü olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) vasitəçiliyi ilə keçirilən müzakirələrdir. Ona görə ciddiyyəti daha artıqdır. Bu istiqamətdə Rusiyada keçirilən görüşlərin də əhəmiyyəti böyük olur. Avropa İttifaqı bununla bağlı aparılan müzakirələr hələ hansısa bir nəticəyə gəlmək üçün zəmin rolunu oynamır. Amma qeyd etdiyim iki dövlətdə olan danışıqlar prosesi ciddi izlənilməlidir. Orada səsləndirilən təkliflər, fikirlər, görüşlər, müəyyən olunması vacib olan prinsiplər diqqətə alınmalıdır. Bunlar hamısı prosesin irəliləməsi üçün vacib ola biləcək detallardır. Amma bunun bir sülh müqaviləsi ilə yekunlaşmasını söyləmək sadəlövhlük olar. Xatırlayırsızsa, 44 günlük Vətən müharibəsində birdən-birə 10 noyabr bəyanatının ortaya çıxması hamımızı bir qədər təəccübləndirdi. Amma gedişatda gördük ki, vaxtında bu proseslərin bəlli bir zəmini formalaşdığına görə belə bir addım ortaya çıxır. Burada da ola bilər. Elə bir məqam yaranar ki, konkret razılaşma əldə oluna və yaxud olunmaya bilər. Hələ ki bu məsələlər müzakirəyə açıqdır. Əsas orada səsləndirilən təklifləri ciddi şəkildə izləmək və müzakirə etmək vacibdir.

***- Prezident İlham Əliyev Şuşada keçirilən beynəlxalq konfransda çıxışında bildirib ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. "Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar", - deyə dövlət başçısı qeyd edib. Əgər sülh müqaviləsi imzalanmasa, bu, regionda hansı nəticələrə səbəb olacaq?***

- Ölkə Prezidenti bu məsələdə bütün tərəflərin sülhə nə qədər ehtiyacı olduğunu vurğulayıb və bunun qaçılmaz olduğunu söyləyib. Bunun nəticəsi nədir? Sülh yoxdursa, müharibə var. Bu baxımdan, müharibə riski həmişə qalır. Bu zaman bölgə uzun illər hansısa bir şəkildə narahatlıq içində qalacaq, bir-biri ilə savaş, qarşıdurma vəziyyətində olacaq. Hər hansı bir şəkildə kommunikasiya imkanları ortadan qalxacaq. Son 30 ildə sistem pozuqluğu necə oldusa, bundan sonra daha dəhşətli formada davam edəcək. Burada yenə də uduzan Ermənistan olacaq. Ona görə ki, Azərbaycan özünə aid olan əraziləri geri qaytardı. Hazırda həmin əraziləri dirçəldir, onların müdafiəsi istiqamətində bütün gücü ilə irəliyə doğru strategiyasını formalaşdırır. Sülh müqaviləsi olsa, bölgəyə hərbi yatırım qoymaq yerinə mülki həyatın, iqtisadiyyatın canlanmasına vəsait buraxacayıq. Bu, Ermənistanın və digər ölkələrin də xeyrinə olacaq. Bütün dövlətlər sülhə yönəlik müəyyən açılımları dəstəkləməlidirlər. Əks halda bu proseslər yaxşı məcrada inkişaf etməyəcək. Bu baxımdan, Prezident vurğulayıb ki, sülhün olmaması müharibənin mümkün olması deməkdir. Bunu da kimlərsə istəyəcəksə, sonra onlar üçün də ciddi nəticələr doğuracaq. Ermənistanın hər hansı bir şəkildə bu məsələdə qazanclı çıxacağını düşünənlər öz ölkələrini nə qədər böyük bir faciəyə sürüklədiklərini anlayacaqlar. İndiki halda Azərbaycanla düşmən olmaq həm də məğlub olmaq riskini daşımaq deməkdir. Bunu düşünməlidirlər.

***- Dövlət başçısı beynəlxalq konfransda Azərbaycanla İran arasında olan münasibətlərdən də danışıb. "İranda hər kəs, bütün dairələr anlamalıdır ki, hədə və terror dili Azərbaycanla işləməyəcək. Azərbaycan ilə İran arasında münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir", - Prezident bildirib. İran-Azərbaycan münasibətlərinin hansı hallarda və nə zaman normallaşacağını düşünürsüz?***

- İran terrorçu dövlət kimi davranmağa çalışır. Terrorçu dövlət kimi də əsas hədəfini Azərbaycana yönəldib. Bu da ölkəmiz üçün məqbul deyil. Azərbaycan 30 il əvvəlin yenicə müstəqillik qazanan ölkəsi deyil. Kifayət qədər güclü, müttəfiqləri, xarakteri və prinsipləri olan dövlətdir. İran səfirliyimizə hücum edir, ölkəmizin içərisində terror həyata keçirir və bunu dəstəkləyir. Bu yolla Azərbaycana hansısa bir şəkildə təhdid, şantaj yönəltməyə çalışır, amma bunlar keçərli deyil. Azərbaycan qonşu dövlətlərlə normal münasibətlərin olmasında maraqlıdır. Azərbaycanın müharibə apardığı dövlətlə birbaşa ölkəmizə qarşı koalisiya yaratmaq, onu bizə qarşı şirnikləşdirmək qəbuledilməzdir. Eyni zamanda, Azərbaycanın sərhədlərində düşməncəsinə hərbi təlimlər keçirib bizi hədələmək məntiqsiz, səviyyəsiz davranışdır. Cənab Prezident də qeyd edib ki, bu gün münasibətlər çox aşağı səviyyədədir. Elə bir başqa ölkə tanımıram ki, orada səfirliyimizi bağlayaq. Vəhşi, diplomatik dildən anlamayan zehniyyətə sahib Ermənistanı tanıyırdıq. Bununla bərabər İranın da bu cərgəyə qoşulması, faşist zehniyyətinin daşıyıcısına çevrilməsi, səfirliyə hücum edərək oranı güllə atəşinə tutması heç bir məntiqi izahı olan, müasir dövrün prinsiplərinə uyğun gələn davranışlar sayıla bilməz. İran bundan imtina edərsə, Azərbaycanın münasibətlər qurmasında problem yoxdur. İran bundan imtina etmirsə, Azərbaycan da ona düşmən münasibət bəsləyən ölkərə qarşı eyni olacaq. Biz dinçi, faşist zehniyyətin qabağında geri duraraq hansısa maraqlarımızı qurban vermək niyyətində deyilik və olmayacağıq.



***- Məlum olduğu kimi, Zəngəzur dəhlizinin, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə əhəmiyyəti var. Onun açılmasına kimlər mane olur və dəhliz nə zaman istifadəyə verilə bilər?***

- Zəngəzur dəhlizinin açılması, yolun istifadəyə verilməsi bölgə dövlətlərinin hamısının maraqlarına uyğundur. İqtisadi marağına uyğun olan, bir çox hallarda siyasi maraqlarına uyğun gəlmədiyini deyir. Həmin siyasi maraqları özləri müəyyən ediblər. Onun məzmununu söyləməkdə çətinlik çəkirlər. Deyirlər ki, sərhədlərin dəyişilməsini istəmirik. Kim sərhəd dəyişir? Biz Laçın yolunda sərhədi dəyişdikmi? Orada postumuzu qoyduq. Sizin də orada postunuz olacaq və beynəlxalq hüquqa uyğun əlaqələr qurulacaq, kommunikasiya xətti açılacaq. Buna maraqlı olan zehniyyət həmin ölkələrdə qalib gəlməlidir. Bu həm Ermənistana, həm də İrana aiddir. Onlar anlamalıdırlar ki, bu yol açılmasa, bölgəyə sülhün gəlməsi mümkün olmayacaq. Gediş-gəliş olmalıdır ki, məsələlər öz həllini tapsın. Ona görə də Zəngəzur dəhlizinin alternativi yoxdur. Bu mütləq açılacaq. Gərginliyin azalması üçün dəhlizin açılmasından çox şey asılıdır. Buna da getməlidirlər. Burada hər hansı bir şəkildə bəsit direniş göstərməyin adı yoxdur. Dəfələrlə bunun əhəmiyyətini bütün maraqlı tərəflərin diqqətinə çatdırmışıq. İsrarla bu dəhlizin açılmasını tələb edirik. Əminəm ki, necə Qarabağı qaytardıqsa, Zəngəzur dəhlizini də təkcə gündəmə gətirməyəcəyik, həm də onu real kommunikasiya vasitəsinə çevirəcəyik. Hər kəs buna əmin olmalıdır. Ölkə Prezidentinin də bu istiqamətdə qətiyyətli siyasət izləməsi onu göstərir ki, Azərbaycan buna hökmən nail olacaq.

# Fuad Nağıyevin 10 milyard manatlıq optimizmi...

## Dövlət Turizm Agentliyi indiki qiymətlərlə və xidmət keyfiyyəti ilə 2026-cı ildəki hədəflərinə çata bilərmi?

***Bu günlərdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev "Bakı KOB Evi"ndə keçirilən "Turizm biznesi: Mövcud vəziyyət və perspektivlər" adlı tədbirdə xeyli nikbin açıqlamalar verib. O deyib ki, 2026-cı ilə qədər ölkəyə gələn xarici turistlərin illik sayının 4 milyona, yerli turistlərin illik sayının 6 milyona, turizm üzrə xərclələmələrin illik məbləğinin isə 10 milyard manata çatdırılması üçün addımlar atılır!***

Səbəb - Azərbaycanın turizm sahəsində, habelə tabeliyindəki dövlət qoruqlarının ərazilərində yerləşən tarixi və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dövlət Turizm Agentliyinin öz fəaliyyətini müasir çağırışlara uyğun qura bilməməsi, nəticədə turizm sektorunda yüksək qiymətlərin meydan oynatması, bunun müqabilində isə xidmət keyfiyyətinin hədsiz dərəcədə aşağı olması-yeganə yolu turizm bazarında azad rəqabətin təmin edilməsidir.Bunun fonunda xarici qonaqlara individual şəkildə və münasib qiymətlərlə xidmətin göstərilməsi ölkəyə turist axınının sürətləndirə bilər.

Bəli, bu gün dünyada növbənöv turizm kampaniyaları elan edilir. Amma bizdə isə paytaxtla yanaşı, rayonlarda da istirahət mərkəzlərində qiymətlər "od püskürür". Hələ xidmətin səviyyəsindən danışmırıq. Nəticədə həm yerli, həm də xarici turistlər daha sərfəli qiymət



və xidmət təklifinə görə qonşu ölkələri seçirlər. Ekspertlər bu sahədə ciddi dönüşə, islahatlara ehtiyac olduğunu deyirlər. Əks halda bir gələn bir də gəlməyəcək və ya Azərbaycana maraq sürətlə azalacaq.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev öz nikbin proqnozlarının doğrulmağını istəyirsə, yəni hədəf həqiqətən də 2026-cı ilə qədər ölkəyə gələn xarici turistlərin illik sayını 4 milyona, yerli turistlərin illik sayını 6 milyona, turizm üzrə xərcləmələrin illik məbləğini isə 10 milyard manata çatdırmaqdırsa, həqiqi mənada sözdən işə keçmək lazımdır. Turizm sektorunda rəqabət imkanları artırılmalıdır, məmurların bu sahədəki inhisarçı maraqlarının önünə keçilməlidir, qiymət və xidmət siyasəti istiqamətində konkret tənzimləyici addımlar atılmalıdır. Bu isə həm də Dövlət Turizm Agentliyinin öz fəaliyyətini yeni dövrün çağırışları əsasında, inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun qurmağı tələb edir.

Qarşıdan yay turizmi gəlir. Uzağa getməyək, elə ötən il nəinki yerli vətəndaşlar, hətta xaricdən gələn turistlərin Azərbaycanda qiymətlər və xidmətlər arasında uçurumdan narazı olduğuna dair media dəfələrlə yazdı. Hətta Dövlət Statistika Komitəsinin rəsmi rəqəmlərindən də bu narazılıq aydın göründü. Bənzər ssenarinin bu il də təkrarlanmaması üçün Dövlət Turizm Agentliyi hansı addımları atmağı planlaşdırır? Fikrimizcə, adıçəkilən qurum optimist açıqlamalarla yanaşı, bu suala da cavab versə yaxşı olar...

"Hazırda Suqovuşan, Tuğ və Hadrutda turizm infrastrukturunun inkişafı üzrə işlər aparırıq. Həmçinin bu məqsədlə hava nəqliyyatının inkişafı ilə bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Görülən işlərlə yanaşı görəcəyimiz çox iş var. İnkişaf üçün hər birimiz çox səy göstərməliyik", - deyə F.Nağıyev əlavə edib.

Agentlik rəhbərinin optimizmini anlayırıq: Azərbaycanın təbii-coğrafi şəraiti turizmin inkişafı üçün böyük perspektivlər açır. Son illərdə bu sahənin inkişafı üçün dövlət səviyyəsində mühüm işlər həyata keçirilib. Amma...

Məsələnin "amma"sı ondan ibarətdir ki, qonşu ölkələrlə müqayisədə Azərbaycan turist cəlbində arzulanan səviyyəyə çata bilmir! Buna səbəb, əlbəttə ki, müvafiq imkanların olmaması deyil. Artıq pandemiya da arxada qalıb. Bəs nədir səbəb?dır.

Qiymətlərin bahalığına əmin olmaq üçün tur şirkətlərinin təklif etdiyi rəqəmlərə nəzər salmaq kifayətdir. Deməli olar, tək-tük travel şirkətləri var ki, münasib qiymət təklif edirlər. Məsələn, bu yaxınlarda "PIN Travel" şirkətinin direktoru Lalə Paşayeva demişdi ki, hazırda ölkəyə Türkiyə, Rusiya, Hindistan və Birləşmiş Ərəb Əmirliklərindən daha çox turist gəlir. Onun sözlərinə görə, ölkəyə turist axınını gücləndirmək üçün hazırda qiymətləri minimuma endiriblər.

Hərçənd, Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə də deyir ki, ötən illə müqayisədə bu ilin yanvar-mart aylarında Azərbaycana səfər edən turistlərin sayı 369 mindən çox olsa da, pandemiyadan öncəki rekord göstəriciyə hələ ki, çatmaq mümkün deyil.

Ekspertlər hesab edir ki, rekord nəticəyə yaxınlaşmağın

***Sənan Mirzə***

# "Azərbaycanda hər 8 nəfərdən biri sahibkardır" - Komitə sədri



***Azərbaycanda 1,4 milyondan çox sahibkar var.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında komitə sədri Tahir Mirkişili deyib.

Komitə sədri qeyd edib ki, ölkəmizdə hər səkkiz nəfərdən biri sahibkardır.

***Anar Kəlbiyev***

# Yoxlayıcı bu hallarda yoxlama apara bilməz

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanuna yeni - 1-1-ci Fəsildə əlavə olunur.***

"Unikal" xəbər verir ki, layihəyə əsasən, dövlət qulluqçuları olan yoxlayıcılar "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunun tələblərinə əməl etməlidirlər. Həmin Qanunun etik davranış qaydalarına dair tələbləri dövlət qulluqçusu olmayan yoxlayıcılara da şamil olunur.

Yoxlayıcı aşağıdakı hallarda yoxlama apara bilməz:

- yoxlanılan hüquqi şəxsin təsisçisi (iştirakçısı) olduqda;
- yoxlanılan fərdi sahibkarın, hüquqi şəxsin təsisçisinin (iştirakçısının), idarəetmə orqanlarının üzvlərinin (rəhbərinin) yaxın qohumu olduqda.

Bu hallar müəyyən edildikdə, yoxlayıcı orqanın rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən yoxlamanın aparılması haqqında qərarda dəyişiklik edilərək yeni yoxlayıcı təyin edilir və həmin qərar sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir.

Yoxlayıcı maddi və sair nemətlər, imtiyazlar və ya güzəşt qarşılığında rəsmi və ya qeyri-rəsmi qaydada, yoxlanılan sahibkara ödənişli məsləhət xidmətləri göstərə bilməz.

Sahibkarlıq sahəsində yoxlama zamanı yaranan xərclər yoxlayıcı tərəfindən ödəniləcək. Dəyişikliyə əsasən, sahibkarlıq sahəsində yoxlama zamanı götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərin dəyişməz saxlanılması, daşınması, tədqiqi, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər yoxlayıcı orqan tərəfindən ödənilir.

# Laçındakı sərhəd buraxılış məntəqəsi bu siyahıya daxil edildi

***Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısa dəyişiklik edilib.***

"Unikal"ın xəbərinə görə, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərarla Laçın dövlət sərhədindən buraxılış məntəqəsi (Laçın rayonu (Malxələf kəndinin yaxınlığı), Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında) siyahıya daxil edilib.

# DİN Bərdədə əməliyyat keçirdi - Silahlı dəstə saxlanıldı

***Bərdədə heroin alveri ilə məşğul olan silahlı dəstə saxlanılıb.***

Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri ilə rayon sakinləri Pərviz Bədirov, Sərdar Talıbov, Vüsal Məmmədov və qardaşı Pərviz saxlanılıblar. Şəxsi axtarış zamanı onlardan müxtəlif çəkidə heroin və marixuana aşkar olunub.

Davam etdirilən tədbirlərlə Pərviz Məmmədovun yaşadığı evə baxış zamanı oradan da heroin və qanunsuz saxladığı "TOZ-16" markalı ov tüfəngi aşkar olunaraq götürülüb.

Araşdırma aparılır.

# Biznes sahəsində yoxlama obyektinin dəqiq siyahısı müəyyənləşdirilir

***Sahibkarlıq sahəsində yoxlama obyektinin dəqiq siyahısı müəyyən edilir.***

"Unikal" xəbər verir ki, bununla bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklə öz əksini tapıb.

Yoxlama obyekti - yoxlamaların məqsədləri üçün nəzarət sahəsindən asılı olaraq aşağıdakılardır:

- sahibkarın məcburi tələblər müəyyən edilən malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə fəaliyyəti;

- sahibkarlıq fəaliyyəti ilə əlaqədar sahibkarın mülkiyyət hüququ ilə və digər qanuni əsasla sahiblik etdiyi və məcburi tələblər müəyyən edilən əmlakı (o cümlədən sahə, istehsal sahəsi), habelə sahibkarın struktur bölməsi;

- sahibkara məxsus və məcburi tələblər müəyyən edilən mallar, işlər və xidmətlər.

# "Tərtər işi"ndə daha 4 nəfərin məhkəməsi başlayır

***"Tərtər işi" üzrə ittiham olunan daha 4 nəfər - Mikayılov Ruslan Məhəmmədəli oğlu, Maşıyev Sənan Səxavət oğlu, Qəhrəmanov Cabir Babaxan oğlu və Əliyev Elçin Kalam oğlunun cinayət işi üzrə məhkəmə prosesi başlayır.***

"Unikal" Trend-ə istinadən məlumat verir ki, cinayət işi Bakı Hərbi Məhkəməsinin hakimi Camal Ramazanovun icraatına verilib.

İş üzrə 185 nəfər zərərçəkmiş qismində tanınıb. Proseslər Sumqayıt Məhkəmə Kompleksində keçiriləcək.

Qeyd edək ki, cinayət işi üzrə ittiham olunan general-mayor Bəkir Orucov və 8 nəfərin işi üzrə məhkəmə araşdırması gedir.

Xatırladaq ki, 2021-ci ilin dekabr ayında Baş Prokurorluqda "Tərtər işi" ilə bağlı cinayət işlərinin icraatının təzələnməsi ilə bağlı qərarlar qəbul edilib. İstintaq zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verilməsi, onların qanunsuz azadlıqdan məhrum edilməsi və vəzifə səlahiyyətlərini aşılmasına əsaslı şübhələr müəyyən edilmiş onlarla şəxs cinayət məsuliyyətinə cəlb olunub. Təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.2 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma), 341.2.3 və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) və digər maddələri ilə ittiham irəli sürülüb.

# Komitə sədri iş adamlarının şikayətinə aydınlıq gətirdi

***Yoxlayıcı orqanların (yoxlayıcıların) qərarlarından və hərəkətlərindən şikayət verilməsi qaydası dəqiqləşdiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında komitə sədri Tahir Mirkişili deyib.

"Belə ki, təklifə əsasən qərarları və hərəkətləri barəsində şikayət olunan yoxlayıcı orqanların (yoxlayıcıların) yuxarı dövlət orqanı olmadıqda, sahibkarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana şikayətlə müraciət edə bilərlər. Bu dəyişikliklərin qəbul edilməsi sahibkarların fəaliyyətinə edilən lüzumsuz müdaxilələrin və onların inzibati yükünün artmasının qarşısının alınmasına, ümumilikdə isə sahibkarlığın inkişafına, biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət edəcək",- deyə komitə sədri bildirib.

# Naxçıvanda polisə tabe olmayan şəxs həbs edildi

***Naxçıvanda polisə tabe olmayan şəxs həbs olunub. "Unikal"ın məlumatına görə, hadisə Ordubad rayonunun Dəstə kəndində qeydə alınıb.***

Belə ki, kənd sakini Nicat Vəliyev (ad-soyad şərtidir) həmkəndlisinin evinin qarşısında səs-küy salıb və söyüş söyüb. Hadisə yerinə polis əməkdaşları çağırılıb. N. Vəliyev isə polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayıb, öz hərəkətlərini davam etdirib.

Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 510-cu (Xırda xuliqanlıq) və 535.1-ci (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) maddələri ilə protokol tərtib olunub, baxılması üçün məhkəməyə göndərilib.

Ordubad Rayon Məhkəməsinin qərarı ilə N. Vəliyev 15 gün müddətinə inzibati qaydada həbs edilib.

***Murad İbrahimli***

# Azərbaycanda bəzi banklarla bağlı gözlənilməz xəbər

## Mərkəzi Bankın sədri hansı banklarda problemlərin olduğuna işarə etdi?

***"Bəzi bankların maliyyə göstəricilərində çağırışlar var". Bunu yola salmaq üzrə olduğumuz həftə keçirdiyi mətbuat konfransında Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib.***

"Biz onlar ilə çox sıx çalışırıq. Sevindirici məsələ ondan ibarətdir ki, çağırışlar olan banklar sistem əhəmiyyətli deyil. Qeyd etdiyim kimi, onlar ilə çalışırıq və ümidvaram ki, bundan sonra bizim maliyyə sektorumuz dayanıqlılıq nöqteyi-nəzərdən güclənəcək", - Kazımov deyib.

Mərkəzi Bank rəhbəri "maliyyə sektorunun durumunu çox qənaətbəxş qəbul edirəm"deyib və əlavə edib: "Tənzimləyici qurumun rəhbəri olaraq maliyyə sektorunun durumunu çox qənaətbəxş qəbul edirəm. Sektor üçün əsas risklər kredit riski və




əməliyyat riskidir. Kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Bankların əksəriyyəti pərakəndə bankçılıqda fəaliyyət göstərir. Qeyri-işlək kreditlərin portfeldə xüsusi çəkisi cəmi 3,7%-dir. İqtisadiyyatımızın durumu nöqteyi-nəzərdən maliyyə sektorumuz çox güclüdür. Siz soruşsanız ki, "maliyyə sektorunun durumundan razısınız?", sozsüz ki, "yox". Qarşıya qoyduğumuz islahatlardan irəli gəlir ki, bizim maliyyə sektorumuz iqtisadi inkişafda rolu artsın, onlar həm risklərin idarə edilməsi sahəsində, həm korporativ idarəetmə sahəsində qabaqcıl təcrübələri tətbiq etməyə başlasınlar, bununla öz maliyyə dayanıqlıqlarını gücləndirsinlər. Əsasən də, istəyimiz odur ki, əhalinin əmanətləri, onların hüquqları müdafiə olunsun və iqtisadi inkişafa dəstək olsunlar".

Göründüyü kimi, Mərkəzi Bankın sədri maliyyə sektorunun durumunu çox qənaətbəxş qiymətləndirsə də, bəzi banklarla bağlı problemin olduğuna işarə edib. Lakin söhbətin konkret hansı banklardan getdiyini açıqlamayıb.

Bununla belə, Mərkəzi Bank rəhbərinin "Sevindirici məsələ ondan ibarətdir ki, çağırışlar olan banklar sistem əhəmiyyətli deyil" deməsindən belə anlaşılır ki, haqqında danışılan banklar sektorun aparıcı bankları hesab edilmir.

Xatırladaq ki, Azərbaycanda problemli kreditlərin həcmi bu ilin fevral ayında yanvar ayı ilə müqayisədə 3,8% artaraq 606,1 milyon manata yüksəlmişdi. Həmçinin cari il fevralın sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 3% təşkil etmişdi.

Bundan başqa, 2022-ci ildə Azərbaycanda bir sıra bankların mənfəəti ciddi şəkildə azalmışdı. Bəziləri isə ili zərərlə başa vurub. Bu barədə məlumat bankların öz hesabatlarında yer almışdı. Məsələni şərh edən iqtisadçı-ekspert Xalid Kərimli isə bir müddət əvvəl yerli mediaya açıqlamasında demişdi ki, gəlirlərin azalması, bəzi xərclərin artması, müəyyən tənzimləmələrin, xüsusən istehlak kreditləri sahəsində sərtləşməsi, eyni zamanda bankların ehtiyat siyasətləri - gələcəkdə qarşılarına çıxa biləcək problemlərə qabaqcadan ehtiyat yaradaraq hazırlıqlı olma cəhdləri və s. bankların illik nəticələrinə təsir göstərir. Bundan əlavə, 2022-ci ildə Mərkəzi Bankın tənzimləmələri də mövcud durumun yaranmasına təsir edib. Müəyyən qədər də rəqabət həmin bankları sıxışdırıb. Belə ki, rəqabət mühitində bəzi banklar ya yaxşı idarə olunaraq, yaxşı müştəri menecmenti quraraq və yaxud da inzibati resurslardan daha ciddi istifadə edərək paylarını artıra bilib. Beləliklə, bir bank irəli gedərkən digəri geridə qalıb.

Lakin ili zərərlə başa vuran bankların bağlanma ehtimalına gəldikdə isə ekspert belə bir şeyin baş verəcəyini düşünmədiyini demişdi: "Bankın hansısa bir ildə zərərə getməsi onun bağlanması üçün əsas deyil. Bankın bağlanması üçün minimum kapital tələbləri var və hazırda mənfəəti azalan, həmçinin mənfəəti zərərlə əvəzlənən bankların hər biri minimum kapital tələblərinə cavab verir. Minimum kapital tələbi dedikdə nizamnamə kapitalı nəzərdə tutulur ki, o, qanunvericiliyə uyğun olaraq 50 milyon manatdan aşağı ola bilməz. Yəni siz zərər edə bilərsiniz, amma bu, o demək deyil ki, bağlanmalısınız".

Qeyd edək ki, mütəxəssislər AMB sədrinin bəzi banklarda problemlərin olduğuna işarə etməsini də qarşıdakı dövrdə hansısa bankın bağlana biləcəyi yönündə xəbərdarlıq kimi qiymətləndirmirlər. T.Kazımovun dediklərindən anlaşılır ki, requlyator-tənzimləyici orqan olaraq Mərkəzi Bank həmin problemin aradan qaldırılması istiqamətində sözügedən banklarla işləyir. Bu da mütəmadi olaraq gündəmə gələn "bağlana biləcək banklar" mövzusunun hələ ki, aktual olmadığını göstərir. Ancaq istənilən halda hər şey fəaliyyətində problemlər müşahidə edilən bankların "müalicəyə reaksiyasından" asılı olacaq...

***Toğrul Əliyev***

# “AST Telman”a növbəti böyük şok!

## Müflisləşdiyi deyilən iş adamının indi də 100 hektar torpağını əlindən aldılar

***Azərbaycan əsilli iş adamı Telman İsmayılovun 100 hektar torpağı müsadirə edilib. Lent.az-ın əldə etdiyi məlumata görə, İsmayılov həmin ərazini vaxtilə binaların tikintisi üçün istifadə etmək istəyirmiş.***

Moskva vilayətində yerləşən sahə indi “Tekta” qrupun nəzarətinə keçib. Məlumata görə, sözügedən ərazi kənd təsərrüfatı məqsədilə istifadə olunacaq.

Xatırladaq ki, hələ 2016-cı ildə “Forbes” jurnalı Rusiyanın iflas etmiş 15 iş adamının siyahısını hazırlayıb. Siyahıda ”AST” Şirkətlər Qrupunun sahibi Telman İsmayılov birinci göstərilib. Onun 158,9 milyard rubl borcunun olduğu qeyd olunub.

Qeyd edilib ki, onun borcu 2009-cu ildə ”Çerkizov” bazarı bağlanandan sonra yaranmağa başlayıb.

Bundan bir il sonra, 2017-ci ildə isə Moskva Arbitraj Məhkəməsi Telman İsmayılovun müflis olduğunu təsdiqləyib. Belə ki, həmin il noyabrın 19-da “AST Telman” Moskva arbitraj məhkəməsinə ərizə ilə müraciət edərək müflis elan edilməsini xahiş edib. Lakin məhkəmə bu iddia üzrə dekabrın 26-nadək gözləmə mövqeyi seçib. Sonradan onun müraciətinə həmin gün baxılacağı barədə rəsmi məlumat yayılıb.

Rusiyada müflisləşmə haqda qanunun yeni redaktəsinin sözügedən günlərdə qüvvəyə minməsindən istifadə edərək keçmiş milyarderin borclu olduğu banklar və şirkətlər onun müflis elan edilməsi barədə iddia qaldırıblar. İddiaçılar arasında ”Bank Moskva” da yer alıb.

Həmin vaxt qeyd edilirdi ki, Rusiyada Telman İsmayılovun yerli banklara 100 milyon dollardan çox borcu var. Onun ən iri aktivi - Türkiyədəki 1,4 milyard dollarlıq ”Mardan Palace” oteli də ”Halk bank”a olan borcuna görə hərracda dəyərindən az qala 10 dəfə aşağı satılmışdı.

Bu yaxınlarda isə “AST Telman”ın özünü müflis elan etməsi ilə bağlı sensasion iddialar ortaya atılmışdı. Sözügedən iddialara görə, Telman İsmayılovun Rusiyada qazandığı pulları Türkiyə iqtisadiyyatına yatırması Kremlin qəzəbinə səbəb olub və onu çökdürüblər, Rusiyadan çıxmağa məcbur ediblər. Eyni zamanda o da deyilirdi ki, adıçəkilən iş adamı heç də müflis olmayıb, sadəcə, varidatını müxtəlif yollarla Rusiyadan çıxarıb və qəzəbə tuş gəlməsi də məhz elə buna görədir. Sual doğurur ki, Telman İsmayılov milyardlara sahib olduğu Rusiyadan niyə çəkilsin? Hazırda bu suala cavab verən bir iddia ortaya çıxıb. “Bəzi ekspertlər bildirir ki, yəhudi əsilli, bu camiyəyə tam bağlı olan, onlar tərəfindən dəstəklənən Telman İsmayılova hələ illər öncə Rusiyanı qara günlər gözlədiyi, Rusiyada çalışan iş adamlarına sanksiyalar tətbiq ediləcəyi, varidatının, Avropa banklarındakı vəsaitlərinin dondurulacağına dair dəqiq məlumat çatdırılıb və o, biznesini qorumaq üçün Rusiyanı tərk etməyə başlayıb. Bunu anlayan Rusiya rəhbərliyi isə onu “xəyanətkar” hesab edib, mülklərini əlindən almağa çalışıb. Lakin bu zamanadək Telman İsmayılov işini görübmüş, bazarlarını, mülklərinin çoxunu satıbmış, vəsaitini Rusiyadan çıxarıbmış...” deyə bir ay öncə musavat.com saytı yazıb.

O da vurğulanıb ki, Ukrayna-Rusiya müharibəsinin fonunda Rusiyaya tətbiq olunan və getdikcə ağırlaşdırılan sanksiyalar Telman İsmayılovla bağlı ortaya çıxan bu iddialarda həqiqət payının olduğunu söyləməyə əsas yaradır. Dolayısı ilə bunu belə də adlandırmaq olar: “AST Telman” Putini hamıdan əvvəl aldada və özünü xilas edə bilib...



Lakin sözügedən iddiaların fonunda indi İsmayılovun Moskva vilayətində yerləşən, dəyəri böyük ehtimalla on milyonlarla dollar olan 1000 hektar torpağının müsadirə edilməsi xəbəri doğurur. Görünür, “AST Telman”ın Rusiya rəhbərliyini aldada bilməsindən danışmaq üçün tezdir. Əks təqdirdə bu qədər böyük və qiymətli ərazi özünü müflis elan edən iş adamının əlindən çıxmazdı. Özü də pulsuz-parasız...

Yeri gəlmişkən, “AST Telman”ın hazırda hansı ölkədə olduğu barədə qəti məlumat yoxdur. Ötən ilin mayında onun bir vaxtlar sığınacaq aldığı Monteneqrodan Fransaya köçdüyü barədə məlumat yayılmışdı. Bildirilmişdi ki, Rusiya onun barəsində İnterpol xəttiylə axtarış versə də, Montenqro iş adamını təhvil verməkdən boyun qaçırıb. Səbəb kimi isə “AST Telman”ın Monteneqro prezidenti Milo Cukanoviçlə yaxşı münasibətləri göstərilir. Cukanoviç biznesmenin Türkiyədə tikdirdiyi, sonradan isə yuxarıda da vurğuladığımız kimi, dəyərindən qat-qat ucuza satdığı dəbdəbəli “Mardan Palace” hotelində qonaq da olub.

Son məlumatlarda İsmayılovun hazırda Fransanın Nitsa şəhəri yaxınlığındakı Antiba qəsəbəsində məskunlaşdığı bildirilir. Antibada özünü müflis elan edən biznesmenə məxsus böyük bir villa var. Həmin villanın 25 milyon avrodan yüksək qiymətləndirildiyi, bundan başqa, Almaniyanın “Deuche bank”nın girovluğunda olduğu da gələn məlumatlar arasındadır.

***Sənan Mirzə***



# Yoxlama zamanı sahibkarın hüquq və vəzifələri müəyyənləşir

***Yoxlama zamanı sahibkarın hüquqları və vəzifələri məlum olub. ”Unikal” xəbər verir ki, bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” qanuna əlavə edilməsi təklif edilən yeni - 1-1-ci Fəsildə əksini tapıb.***

Layihəyə əsasən, yoxlama zamanı sahibkarın aşağıdakı hüquqları var:

- yoxlama bu qanununda müəyyən edilən dövrilik pozulmaqla aparıldıqda, yoxlamanın aparılması ilə əlaqədar müəyyən edilən müddətlər pozulduqda, bu qanunla müəyyən edilən məlumatlar (sənədlər) yoxlayıcı tərəfindən təqdim edilmədikdə yoxlayıcının yoxlama aparmasına icazə verməmək;
- yoxlama başlamazdan əvvəl yoxlayıcıdan onun xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı tələb etmək, yoxlamanın hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat almaq və bu sənədlərlə tanış olmaq imkanının yaradılmasını tələb etmək;
- yoxlayıcı orqanların (yoxlayıcıların) qərar və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək;
- sübut və izahatlar təqdim etmək;
- yazılı izahatlar vermək, yoxlamaya aid olan hər hansı bir sənədin və ya onun surətinin yoxlama aktına əlavə olunmasını, həmçinin yoxlama zamanı baş verən, sahibkarın və ya yoxlayıcının hüquq və ya vəzifələrinə təsir edə biləcək faktlar barədə qeydlərin yoxlama aktına daxil edilməsini tələb etmək;
- yoxlama zamanı tərtib olunmuş yoxlama aktı və digər sənədlərlə tanış olmaq;
- bildirişlərin və yoxlama ilə əlaqədar məlumatların (sənədlərin) göndərilməsi üçün elektron poçt və ya digər poçt ünvanını yoxlayıcıya bildirmək;
- yoxlayıcının fəaliyyətinə maneə yaratmamaqla, yoxlama prosesinin foto, audio və video çəkilişini aparmaq və bu məqsədlə digər şəxsləri yoxlama prosesinə cəlb etmək;
- öz hüquq və mənafelərini qorumaq məqsədilə üçüncü şəxsləri yoxlama prosesinə cəlb etmək;
- yoxlama obyektinə aid olmayan, həmçinin yoxlamanın aparılması haqqında qərarda qeyd olunan yoxlama dövrünə aid olmayan məlumatları (sənədləri) yoxlayıcıya təqdim etməmək;
- yoxlayıcının qanunsuz tələblərini icra etməmək.
- Layihə həmçinin, yoxlama zamanı sahibkarın vəzifələrini də müəyyənləşdirir. Yoxlama zamanı sahibkarın vəzifələri aşağıdakılardır:
- yoxlama suallarına aid olan və yoxlamanın icrası üçün yoxlayıcılar tərəfindən bu qanuna uyğun olaraq tələb olunan məlumatları (sənədləri) təqdim etmək;
- iş saatları ərzində yoxlayıcıların yoxlama obyektinin yerləşdiyi yerə maneəsiz daxil olmasına şərait yaratmaq;
- yoxlamanın başladığı və davam etdiyi müddətdə yoxlamada iştirak etmək və ya səlahiyyətli nümayəndəsinin iştirakını təmin etmək;
- bilavasitə, yaxud səlahiyyətli nümayəndəsi və işçiləri vasitəsilə yoxlayıcıya yoxlama aparılmasına şərait yaratmaq;
- kommersiya, vergi və qanunla qorunan digər sirlərin qorunması məqsədilə qanunla müəyyən edilmiş tələblər nəzərə alınmaqla yoxlama aktına əlavə edilməsi üçün yoxlama obyektinə aid olan sənədlərin və digər növ informasiya daşıyıcılarının surətlərini kağız və (və ya) elektron daşıyıcıda yoxlayıcıya təqdim etmək, habelə yoxlayıcıya yoxlama obyektinə dair məlumat olan informasiya sisteminə çıxış əldə etmək imkanı yaratmaq.

# Yoxlamaların uzun çəkməsinin səbəbi açıqlandı



***"Bildiyimiz kimi yoxlamalar 30 gün müddətinə açılır. Amma bu yoxlamlar bəzi müəssisəslərdə illərlə davam edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında deputatı Məşhur Məmmədov deyib.

O bildirib ki, illərlə yoxlamaların aparılması müəssisələrin fəaliyyətində problemlər yaradır: "Onların hesabları bağlanır, hətta onların partnyorları ilə problemlər yaradır. Əgər orada 1 yoxlama deyil, 3 yoxlama getməlidirsə, onların 3-ü də aparılmaldır". Komitə sədri Tahir Mirkişili cavab olaraq qeyd edib ki, sahibkarlıq sahəsində yoxlamaların uzun müddət aparılmasnın səbəblərindən biri də sahibkarların elektron bazalarının az olmasıdır.

"Bu da müəyyən problemlərə səbəb olur. Belə ki, ümumi sahibkarların 65%-də kompüter varsa, 35 %-də yoxdur. Proseslərin elektronlaşdırılmaması, mühasibatlıq və digər zəruri işlərin kağız üzərində aparılması, yoxlamaların uzun çəkməsinə səbəb olur".

***Anar Kəlbiyev***

# 2023-cü ilin yanvar-mart aylarında

## Ağdaş rayonunun makroiqtisadi göstəriciləri artmışdır

***2023-cü ilin yanvar-mart aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 80 milyon 366,2 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 10,7 faiz və ya 7 milyon 251,0 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı tikinti-quraşdırma işləri sahəsində 2,6 dəfə və ya 2 milyon 463,6 min manat, sənaye məhsulu istehsalı sahəsində 16,2 faiz və ya 3 milyon 821,4 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 14,9 faiz və ya 173,3 min manat, informasiya və rabitə sahəsində 11,4 faiz və ya 18,4 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 2,2 faiz və ya 478,0 min manat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində isə 1,5 faiz və ya 296,3 min manat artmışdır.

Məhsul və xidmətlərin 69,9 faizi istehsal sahələrinin, 30,1 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Ümumi məhsul buraxılışının 33,9 faizi sənaye, 31,0 faizi kənd təsərrüfatı, 28,1 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 5,0 faizi tikinti, 1,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,2 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Rayonun 17 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 27 milyon 267,3 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16,2 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 86,8 faizi emal, 11,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Bu dövrdə əsas kapitala yönəldilmiş vəsaitlərin 4 milyon 18,0 min manatı və ya 82,6 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artmışdır. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,8 dəfə, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 2,5 dəfə artmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 182,9 min manatı və ya 4,6 faizi dövlət, 3 milyon 835,1 min manatı və ya 95,4 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Ticarət şəbəkələrində əhaliyə 62 milyon 645,5 min manatlıq istehlak malları satılmışdır. 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz və ya 913,1 min manat həcmində çox istehlak malları satılmışdır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailəkəndli və ev təsərrüfatlarında 22135,2 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 8,4 min manatı bitkiçilik, 22126,8 min manatı heyvandarlıq məhsullarının payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı 2,2 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 203,8 faiz, heyvandarlıq məhsulları üzrə 2,2 faiz artmışdır.

***Arif Qurbanov***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

# Azərbaycanda dərmanların bahalaşmasının sensasion pardaarxası

## Tarif Şurasının müəyyənləşdirdiyi qiymətləri vecinə almayanlar kimlərdir?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Azərbaycana idxal edilən dərmanlar bahalaşıb. Belə ki, rəsmi statistikaya görə, bu ilin yanvar-mart aylarında 8666 ton əczaçılıq məhsulları idxal edilib və onların dəyəri 192 milyon dollar olub. Halbuki 2022-ci ilin eyni dövründə dəyəri 163,3 milyon dollar olmaqla 7456 ton əczaçılıq məhsulları idxal olunub. Başqa sözlə, bu il dərman idxalına çəkilən xərc 17% artıb!***

Ən əsası isə, 2022-ci ildə ölkəyə xaricdən idxal edilən əczaçılıq məhsullarının hər tonunun idxal qiyməti 21 900 dollar idisə, 2023-cü ildə bu rəqəm 22 155 dollar olub.

Düzdür, araşdırmalar son dövrlərdə dünyada, xüsusən də qonşu ölkələrdə dərman qıtlığı və bahalığının yetərincə aktuallaşdığını göstərir, belə aydın olur ki, dərman istehsalı və ixracı ilə tanınan, tibbi məhsullar və dərmanla özünütəminetmə səviyyəsi yüksək olan ölkələrdə belə, bu problem kəskin hiss olunmaqdadır. Medianın yazdığına görə, ötən ilin sonlarından Türkiyə, İran, habelə Qazaxıstan və sair ölkələrdə cəmiyyət və media dərman bahalığı və qıtlığından şikayət etməkdə, bu barədə həyəcan təbili çalmaqdadır.



Məsələn, Türkiyədə sözügedən sahədə problemin yaranmasının əsas səbəblərindən biri də dərmanların qiymətinin avro məzənnəsi ilə hesablanmasıdır. Türk lirəsi dəfələrlə dəyər itirdiyinə görə dərmanlar da xeyli bahalaşıb. O da nəzərə alınmalıdır ki, Türkiyə hökuməti ötən ilin dekabrında dərmanların yeni məzənnəyə uyğun olaraq 36,77 % bahalaşmasını rəsmiləşdirib. Dərman istehsal edən şirkətlər isə bazara dərman çıxarmamağa başlayıblar ki, bu da məhsulun qıtlığına və "qara bazar"da dəfələrlə baha satılmasına səbəb olub. Hökumət bu kimi hallara qarşı tədbir görsə də, ekspertlər bu tədbirlərin ötəri effekt verəcəyini, bahalaşma və qıtlığın aradan qaldırılmayacağını qeyd edirlər.

Yaxud, Qazaxıstanın Səhiyyə Nazirliyi bahalığın qarşısını almaq üçün dərman vasitələrinin maksimal qiymətlərini müəyyən edib. Qazaxıstanın səhiyyə nazirinin müavini Jandos Burkitbayevə görə, bəzi dərmanların qiyməti istehsalçıların özləri tərəfindən qaldırılıb. O bir müddət əvvəl bildirib ki, yanvarın 9-da departament 6 715 adda dərmana qiymət limiti müəyyən edib. Nazir müavini onu da vurğulayıb ki, 6 ay ərzində 1918 adda, yəni siyahıdakı bütün dərmanların 29 %-də qiymətlər təxminən 30 % artıb.

Yəni, Azərbaycanda da həm dərmanların qiymətlərindəki bahalaşma, həm də bəzi dərmanların çatışmazlığı müəyyən obyektiv səbəblərə əsaslanır. Nəzərə alsaq ki, ölkədə 14 manata satılan "Qalvus Met" adlı dərmanın Bakıda qat-qat baha - 75 manat 66 qəpiyə satıldığı aşkarlanmışdı.

Qonşu ölkələrlə müqayisədə Azərbaycanda dərmanların bir çox hallarda hətta 10-15 dəfə baha satılması halları Milli Məclis üzvlərinin də narazılığına səbəb olmuşdu. Məsələn, deputat Razi Nurullayev bir müddət öncə bildirmişdi ki, ölkədən xaricə səyahət edənlər geri dönəndə özləri ilə ehtiyacları olan dərman preparatları alıb gətirir: "Çünki vətəndaşın xaricdən alıb gətirdiyi dərman bizim apteklərdə bəzən 5-7 dəfə baha olur".

Onu da deyək ki, Azərbaycanın Tarif Şurası da dərmanların qiymətlərini tənzimləməklə məşğuldur. Lakin belə görünür, kəmiz əczaçılıq məhsullarını daha çox ixrac edir, o zaman qiymət artımı və qıtlığı anlayışla qarşılamaq mümkündür. Lakin bir çox dərmanlar qonşu ölkələrlə müqayisədə fantastik dərəcədə bahadır ki, bu da haqlı olaraq həm vətəndaşlar, həm də mütəxəssislər arasında suallar doğurur.

"Elə əczaçılıq məhsulları var ki, onları Türkiyədə, misal üçün, 20 manata əldə etmək mümkündür. Azərbaycanda isə həmin dərman 55-60 manatdan aşağı deyil. Bu, şübhəsiz ki, absurddur və heç bir sağlam məntiqlə izah edilə bilməz" deyə ekspertlər bildirirlər.

Bu yaxınlarda sosial şəbəkələrdə Azərbaycanda 112 manata satılan dərmanın Türkiyədə vur-tut 17 manata təklif olunduğu barədə məlumat yayılmışdı. Və ya qardaş kimlərsə adıçəkilən qurumun qərarlarına dırnaqarası yanaşır və öz kefləri istədikləri qiymətləri tətbiq edirlər.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti isə hələ ki, Tarif Şurası tərəfindən tənzimlənən dərmanların qiymətlərində hər hansı artımın yolverilməz olduğunu söyləməklə kifayətlənir. Ancaq ümumi sözlərdən ibarət bu cür açıqlamalar Azərbaycanda vətəndaşların fantastik qiymətlərlə dərman almaq məcburiyyətində qalmasının önünə sədd çəkmək üçün, nə yazıq ki, yetərli deyil.

Artıq şübhə yoxdur ki, dərman bazarındakı qiymət "bezpredel"inə son qoymaqdan ötrü daha sərt hüquqi addımlar atmaqdan başqa çıxış yolu qalmayıb...

***Toğrul Əliyev***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ağdamda reallaşan layihələr Böyük Qayıdışın tərkib hissəsidir!

## Sevinc Qarayeva: "Ən böyük arzum babamın, atamın yurdu, uşaqlığımın ən gözəl günlərini yaşadığım Ağdamın Seyidli kəndinə getməkdir"



***Mayın 2-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdama səfər ediblər. Səfər zamanı prezident və birinci xanım Ağdam Muğam Mərkəzinin, Ağdamda "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzinin, Ağdamda inzibati binanın və Ağdamda salınacaq yeni yaşayış məhəllələrinin təməlini qoyublar. Həmçinin Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, "City Hotel" Ağdam mehmanxanasının təməlqoyma mərasimlərində iştirak ediblər.***

Dövlətimizin başçısı və birinci xanım Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərinə də qatılıblar.

Ağdam sakini, 525-ci qəzetin müxbiri, jurnalist Sevinc Qarayeva "Unikal"a açıqlamasında bildirib ki, Ağdam şəhərində bir neçə vacib əhəmiyyətli mərkəzlərin və yaşayış binalarının təməlini qoymaqla Prezident İlham Əliyev Ağdamın nəzərdə tutulduğundan da sürətlə "Böyük Qayıdış"a hazırlaşdığını göstərdi. Onun sözlərinə görə, prezident İlham Əliyevin Ağdama mütəmadi səfərləri, göstərdiyi diqqət və qayğı bu bölgədə tikinti-quruculuq işlərinin ahəngdarlığını daha da artırır. O, qeyd edib ki, Prezidentin müvafiq sərəncamı ilə ermənilərin tamamilə viran qoyduqları, bir salamat bina belə saxlamadıqları Ağdamın yenidən qurulması üçün işlərə xeyli vaxtdır ki, start verilib: "Azad edilmiş ərazilər üzrə ilk baş plan Ağdam rayonuna aid olub. Qeyd edim ki, Ağdama bundan öncəki səfəri zamanı prezident şəhər üçün çox önəmli olan 1 saylı məktəbin, gələcəkdə yeni iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının, İmarət kompleksinin, Ağdamda İşğal muzeyi və Zəfər muzeyinin, şəhərin içində 125 hektarlıq böyük bir meşə sahəsinin təməlini qoyub. Baş Plana görə Ağdamda süni göl yaradılacaq, kanallar, körpülər inşa ediləcək. Hazırda Baş Plana əsasən tikinti quruculuq işləri sürətlə davam etdirilir. Bir sözlə ən qısa zamanda ağdamlı keçmiş məcburi köçkünlərin əzəli-əbədi dədə-baba yurdlarına qayıtması, Ağdama Böyük Qayıdış üçün çox böyük işlərə imza atılır. Bu da illərdir vətən, yurd həsrəti çəkən ağdamlılar tərəfindən böyük sevinclə qarşılanır.

Sevinc Qarayeva bildirib ki, bu gün Prezidentin qətiyyəti, cəsarəti, ordumuzun rəşadəti, milli birliyimiz sayəsində işğaldan azad edilən, erməni vandallarının daşdaş üstündə qoymadıqları Ağdam şəhəri yenidən bərpa edilərək dünyanın ən gözəl məkanlarına çevrilir.

"Qarabağın mərkəzi sayılan, mənfur ermənilər tərəfindən yerlə yeksan olunan Ağdam yenidən qurulur. Özü də Ağdamın qədim ruhunu saxlamaqla. "Qafqazın Xirosiması" olan Ağdamın bu gün necə sürətlə dirçəldiyinin şahidi oluruq. Bu gün Ağdamda reallaşan layihələr Böyük Qayıdışın tərkib hissəsidir, tezliklə bu gözəl diyarın əzəli sakinlərinin tarixi torpaqlarına əbədi Qayıdışının şahidi olacağıq" deyə həmsöhbətimiz bildirib.

Sevinc Qarayeva Ağdam şəhərində anadan olub. Əslən Ağdamın Seyidli kəndindən olan jurnalist Ağdamı 10 yaşı olanda məcburi tərk edib. Həmin günləri həmsöhbətimiz belə xatırlayır:

"Ermənilər mütəmadi olaraq kəndimizi qrad-alazan tipli raketlərdən atəşə tuturdular. Xüsusən gec saatlarında, gecə saat 01:00-02:00 radələrində kənd atəşə tuturdu. Bir neçə qonşumuzun evi raket zərbələrindən dağılmışdı. Bu səbəbdən atam bizi Ağdamın uzaq kəndlərindən birində yerləşdirdi. Günüzlər öz evimizdə, gecələr isə digər kənddəki evdə gecələməli olurduq. Sonuncu dəfə evimizdə Ağdam işğal olmazdan bir həftə öncə olduq. Bizim çox gözəl bağ-bağçamız var idi. Ucu-bucağı görünməyən həyətimizdə babam müxtəlif gül və ağaclar əkmişdi. Hər tərəf yaşıllıq, gül-çiçək idi. Həyətdə böyük tut ağacımız vardı. Onun altında oturub samovar çayı içirdik. Mənfur ermənilər kəndi yenidən atəşə tutdu. Bu dəfə daha ağır silahlardan. Atılan raketlərdən biri ən yaxın qonşumuzun evini darmadağın etdi. O an yaşadıqlarımızı sözlə ifadə etmək mümkün deyil. Atam qardaşımla məni bər-bərk qucaqlayıb maşına tərəf necə sürətlə qaçdığı, anamı, babam və nənəmi evdən necə çıxardığı bu günə kimi yadımdan çıxmır. Birdən yolda atılan raketlərdən biri maşının üzərinə düşər deyib atam avtomobili həyəcanla o qədər sürətlə idarə edirdi ki, 10 yaşlı usaq ağlımla mənə elə gəlirdi sanki maşın qanad çalıb uçacaq. Atam bizi maşına doğru aparanda sonuncu dəfə evimizə, gözəl bağçalı həyətimizə baxdım. O vaxt Ağlıma belə gəlməzdi ki, bu həyəti, evi ermənilər dağıdıb xarabalığa çevirəcəklər".

Sevinc Qarayeva deyir ki 30 il idi ki, ağdamlılar Ağdama qayıtmaq, o torpaqlara bir də ayaq basmaq arzusu ilə yaşayıb.

"Müzəffər ordumuz, Ali Baş Komandan, Prezident İlham Əliyev bizim 30 illik arzumuzu reallığa çevirdi, doğma Ağdamımız mənfur düşməndən azad edildi. Bu gün Ağdam yenidən qurulur, tikilir. İnanıram ki, mənim Ağdamın əvvəlki kimi gözəl bir şəhər olacaq. Ağdam işğaldan azad edildikdən sonra gedib doğma, əziz vətənimi ziyarət etmək istədim. Ancaq videolarda, şəkillərdə gördüyüm mənzərəni canlı görmək cəsarəti və cürətini özümdə tapmadım. Bu gün də tapa bilmirəm. Mənə elə gəlir ki, şəhərin o vəziyyətini görməyə ürəyim tab gətirməz. Ancaq ən böyük arzum babamın, atamın yurdu, uşaqlığımın ən gözəl günlərini yaşadığım Seyidli kəndinə getməkdir. Evimiz dağıdılıb, həyətimiz viran qoyulub. Amma o torpağa ayaq basmaq hər şeyə dəyər"deyə S. Qarayeva bildirdi.

Onun sözlərinə görə, Ağdamın inkişafı, yenidən qurulması, hər bir ağdamlını sevindirir. O, bildirib ki, illərdir həsrətində olduqları kəndlərin yenidən qurulması onlara yaşamağa ruh verir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Tallində "Əbədilik" adlı təntənəli konsert keçirildi

***Estoniyanın Tallin şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əbədilik" adlı təntənəli konsert keçirilib.***

"Unikal" xəbər verir ki, tədbir Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi, Azərbaycanın Estoniyadakı səfirliyinin və Tallindəki Azərbaycan Evinin təşkilatçılığı ilə "Konsert Di Saal" konsert salonunda baş tutub.

Azərbaycanın Estoniyadakı fövqəladə və səlahiyyətli səfiri Anar Məhərrəmov ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunan konsertin əsas məqsədinin Azərbaycan mədəniyyətini və ölkəmizin milli musiqi incilərini Avropa İttifaqının üzvü Estoniyada geniş təbliğ etmək olduğunu vurğulayıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqil dövlətimizin güclənməsi və inkişafı naminə göstərdiyi misilsiz və əvəzsiz xidmətlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüb. Komitə sədri keçirilən tədbirin iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə vermək məqsədi daşıdığını diqqətə çatdırıb.

Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Rina Solman xalqımızın ümummilli liderinin 100 illik yubileyinin Tallində qeyd olunmasını iki ölkənin tarixi baxımından mühüm hadisə adlandırıb, möhtəşəm musiqi gecəsinin ölkələrimiz arasında mədəni əlaqələrin daha da inkişafına və eston tamaşaçısının Azərbaycan milli musiqisi ilə yaxından tanış olmasına xidmət etdiyini bildirib.

Sonra konsert proqramı təqdim edilib.



# Vətənini ürəkdən sevən şəhid Heydər

***Lənkəranın Cil kəndində boya-başa çatan Heydər Ağahüseyn oğlu Qənbərzadə İkinci Qarabağ müharibəsində Vətən torpağının azadlığı uğrunda özünü fəda edəndə ömrünün 23-cü ilini yaşayırdı.***

Uşaqlıqdan doğma Azərbaycana ürəkdən bağlanan Heydər adını onun yeni, şanlı tarixini yazanlardan oldu. Məhz öz qanı ilə xalqın 30 illik həsrətinə son qoyan Heydər kimi mərd oğullar heç vaxt unudulmaz, daimi qəlblərdə yaşayacaq. Gələn gənc nəsillər də zaman-zaman onların Vətən sevgisindən nümunə götürəcək.

Heydər Qənbərzadə orta məktəbi bitirib, eşqində, gözündə bir sehrli nur müstəqil həyatını başlayır. Tərbiyəsi, əməksevərliyi, savadı, ən əsası xalqın adət və ənənəsinə böyük ehtiramı el-obada hamı tərəfindən bəyənilir. Qanında Vətən sevgisi olan gənci erməni daşnaklarının Qarabağımıza təcavüzü hər bir qeyrətli oğul kimi hədsiz narahat edir. Ordu sıralarına yola düşəndə əsas amalı düşməndən qisas almaq olur.

Cəbhə bölgəsinə düşən, doğma Azərbaycanına şərəflə, həvəslə xidmət edən Heydər bir an belə tərəddüd etmədən onun uğrunda ölümə atılmağa hazır durur. Bu yanda da hərbi hissədə nümayiş etdiyi vətənpərvərlik nümunələri əsgərlərin qürurunu oxşayır. Cəsur, bacarıqlı əsgər hər dəfə təlimlərə fəal qatılır, yalnız Vətənlə var olduğunu göstərir. Beləcə, Heydər əsgərliyi üzüağ bitirib, həqiqi hərbi xidmət qulluqçusu olaraq çavuş rütbəsində xidməti davam edir. Və vaxtı gələndə işğal olunmuş müqəddəs Vətən torpaqlarının hərbi yolla azadlığı naminə döyüşlərdə ön sırada yer almağı, son nəfəsə qədər vuruşub ölməyi and içir.

İkinci Qarabağ müharibəsi başlanan günü xalqımıza qarşı törətdiyi vəhşiliklərə görə daşnaklara nifrət edən igid döyüşçü göz qırpmadan müharibə meydanına atılır. Haqq savaşımızda göstərdiyi qəhrəmanlığı ilə ordumuzun iftixar mənbəyinə çevrilən Heydər düşmənə qarşısı alınmaz bir kabus olur. Öldürdüyü erməni dığaları ilə bir daha Vətən onun gözündə müqəddəsləşir. 41 gün odun-alovun içində yağıya sarsıdıcı zərbələr endirir, onların arzusunu ürəyində qoyur. Füzuli və Hadrut döyüşlərində elə bir hünərə imza atır ki, yağı üzrə qələbəmizin çatdığı tam bilinir. Onun sonsuz Vətən sevgisi, yüksək döyüş məharəti Şuşanın azad edilməsi uğrunda gedən ağır müharibədə də nümunə olur. Heydər kimi, minlərlə qəhrəmanın tökdüyü qan zəfər sevincinə dönüb əzəli, əbədi yurd yerimiz Qarabağı 30 ildən sonra bizlərə qaytarır. Son nəfəsdə Heydər Qənbərzadə :" Vətən, arzuma çatdım"- deyib əbədiyyətə qovuşur.

Dövlət Vətən, torpaq uğrunda qəhrəmancasına şəhid olan Heydər Qənbərzadəni ölümündən sonra "Vətən uğrunda", Füzulinin və Şuşanın azadlığına görə medallarına layiq görüb.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir

***2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.***

Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə cari il "Heydər Əliyev İli" elan edilib.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. Türk dünyasının böyük oğlu istedadı və uzaqgörən siyasəti sayəsində keçmiş SSRİ hökumətinin ali hakimiyyət vəzifələrinə qədər yüksələrək bu imkanlardan xalqının iqtisadi və sosial tərəqqisi, milli oyanışı üçün məharətlə istifadə edə bildi.

Hər bir xalqın müstəqilliyi üçün obyektiv zəminin formalaşması müəyyən mənada bir dahi şəxsiyyətin varlığı ilə bağlıdır. Əksər elm xadimləri etiraf edir ki, zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün belə böyük tarix ötən əsrin ikinci yarısında - Ümummilli Lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbəri seçilməsindən sonrakı mərhələdən başlayıb. Ulu öndərin respublikaya rəhbərlik dövrü çağdaş tariximizə mədəni və iqtisadi cəhətdən yüksəliş dövrü kimi daxil oldu, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə kömək etdi. Xalqına, onun tarixinə, adət-ənənələrinə, milli dəyərlərinə qəlbən bağlı olan bir şəxsiyyətin ölkəmizə rəhbərlik etməsi, ağır imperiya dövründə Azərbaycanda bütün sahələr üzrə intibaha əsaslı zəmin yaratdı.

Ümummilli Liderin xalqımızın taleyüklü məsələlərinin həll olunduğu ağır bir məqamda hakimiyyətə gəlişi tariximizə parlaq bir gün kimi daxil oldu. Həmin günün nə dərəcədə dəyərli olması, tariximizdə və taleyimizdə oynadığı rol illər ötdükcə daha dərindən dərk olunur.

Heydər Əliyevin andiçmə mərasimində söylədiyi "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm" sözləri öz təsdiqini əməli işdə tapdı.

Müasir Azərbaycanın tarixini, onun inkişafını Ümummilli Lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etmək mümkün deyil, onun dövlətimiz üçün saysız-hesabsız fəaliyyəti birmənalı şəkildə qəbul edilən həqiqi faktordur. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də onun gələcək inkişafında da qarşıya çıxan bir çox maneələrin aradan qaldırılmasında Ulu Öndərin nümayiş etdirdiyi uzaqgörənlik, müdriklik və dərin zəkada özünü göstərir.



Azərbaycan tarixinin dahi, fenomen şəxsiyyəti kimi Ulu Öndər Heydər Əliyev şərəfli ömür yolunun 40 ilə yaxın bir dövrünü xalqının rifahına həsr edib. O, müasir dövlətçiliyimizin ideoloji-siyasi əsaslarının təməlini qoyub, xalqı həqiqi müstəqilliyə qovuşduraraq onun qəlbində silinməz izlər buraxıb. Bu da təsadüfi deyildir ki, ulu öndərin 100 illik yubileyi hazırda respublikamızda və onun hüdudlarından kənarda ehtiramla qeyd olunur.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" - deyən ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib.

Azərbaycanı öz siyasi iradəsi və uzaqgörən dövlətçilik təcrübəsi ilə firavan həyata qovuşduran dahi liderin iradəsi sayəsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri haqqında müqavilə imzalanıb, onun həyata keçirilməsinə başlanılıb. Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpasında - ümumdünya kommunikasiya proqramının həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayıb.

Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanı əhatə edən GUAM birliyinin yaranmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də H.Əliyevin önəmli xidməti olub. O, demokratik, hüquqi dövlət quruculuğu yönündə ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb.

Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı, 1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandı. Bundan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi, həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı.

O, ən kəskin ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın müstəqil dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Ona görə də Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq tarixdir. Hakimiyyətdə olduğu 34 il müddətində Ulu Öndər xalqının tarixi mənafeyi uğrunda əzmlə mübarizə apardı, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərdi.

1993 - 2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf illəri kimi daxil olub, 2003-cü ildən sonrakı dövr böyük yolun davamı kimi dəyərləndirilir. Bu gün ölkə lideri İlham Əliyevin gördüyü işlər Azərbaycanın güclü, bütün məsələlərə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını şərtləndirib. Həyata keçirilən uğurlu siyasət Azərbaycanı yalnız regionda deyil, həmçinin beynəlxalq miqyasda da söz sahibi olan bir ölkə kimi tanıtdı. 44 günlük İkinci Vətən Müharibəsində qazanılan möhtəşəm Qələbə bu uğurların məntiqi nəticəsidir.

Bu gün tam əminliklə demək olar ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu dünyəvi və demokratik Azərbaycan dövləti öz tarixinin coşqun yüksəliş ilə müşayiət olan şərəfli bir dövrünü yaşayır. Bugünkü müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir.

***Yevlax şəhər Statistika idarəsinin rəis müavini, rəis əvəzi Saleh Cəfərov***

# Azərbaycanda sahibkarların hüquqlarının müdafiəsi gücləndirilir



***Azərbaycanda sahibkarlara məxsus obyektlərdən birində yoxlama aparıldıqda, iş adamlarının fəaliyyəti bütövlükdə dayandırılmayacaq.***

”Unikal” xəbər verir ki, bu, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Amma bu, sənəddə sahibkarlığın hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı yeganə məqam deyil. Belə ki, layihədə ”Risklərin idarə olunması” anlayışı, onun strukturu, eləcə də struktura daxil olan komponentlərin anlayışları verilir. Bu cür yanaşma risklərin idarə olunmasına aydınlıq, ardıcıllıq və şəffaflıq gətirəcək. Bu isə öz növbəsində, risklərin idarə olunması ilə bağlı proseslərdə müəyyənliyin və sahibkar üçün əlçatanlığın artmasına səbəb olacaq.

Bundan başqa, layihədə ilk də yoxlama prosedurunun iştirakçılarının hüquq və vəzifələri, yoxlayıcı qurumun etik davranış qaydaları və maraqların toqquşmasının qarşısının alınması və fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı müddəalar öz əksini tapıb. Həmin müddəalar yoxlayıcı orqanlara dair tələblər müəyyən edir ki, bu da son nəticədə onların məsuliyyətini artırmaqla yoxlama prosesinin şəffaflığının yüksəlməsinə xidmət edəcək.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” qüvvədə olan qanuna əsasən, dövlət orqanı ilə yanaşı publik hüquqi şəxslər də yoxlayıcı orqan hesab olunur. Hal-hazırda, publik hüquqi şəxslərin fəaliyyətinin qiymətləndirilməsi qanunvericiliklə tənzimlənmir. Yeni qanun layihəsi həmin yoxlayıcı qurumların müvafiq əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi məsələsində hüquqi boşluğu aradan qaldırır. Bu isə öz növbəsində, yoxlayıcı orqan səlahiyyəti verilmiş publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinə nəzarəti təmin etməklə, onların məsuliyyətini artırır.

Layihənin bir maddəsi ilə təlim planlarına dair müfəssəl müddəalar əlavə edilir. Eyni zamanda, layihənin digər maddəsi ilə illik planların məzmunu və hazırlanma (yerləşdirmə) müddətləri göstərilir. Hər iki maddə yoxlayıcı orqanların fəaliyyətində şəffaflığın və məsuliyyətin artırılmasına gətirib çıxara bilər.

# Kollektorlar təmizlənir, yeni kanallar çəkilir

***İmişli və Beyləqanda növ kanallar çəkilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov “Unikal”a bildirib ki, Bəhramtəpə Melioservis İdarəsi mövsümə uyğun olaraq meliorativ tədbirlərini davam etdirir.***

İdarə Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında təsərrüfatlararası, təsərrüfatdaxili suvarma və kollektor drenaj sistemlərinin lildən təmizlənməsi, hidrotexniki qurğuların təmiri, bərpası və yenidən qurulması, o cümlədən torpaq məcralı kanalların beton üzlüyə alınması işlərini həyata keçirir. Bundan başqa idarə tərəfindən su itkisinin qarşısının alınması, suyun maneəsiz olaraq su istifadəçilərinə çatdırılması üçün nov kanalların quraşdırılması işləri aparılır. Artıq bu işlər İmişli rayonunda yekunlaşıb. Beyləqan rayonunda isə son tamamlanma işləri görülür.

Beyləqan rayonun Kəbirli kənd sakinlərinin sözlərinə görə əvvəllər kənd ərazisindən keçib gedən kanala su gəldikdə kəndin bir hissəsində problemlər yaranırdı. Sızmaların çox olduğu kanalın nov kanalla əvəzlənməsi artıq bu problemləri aradan qaldıracaq.

Qeyd edək ki, Bəhramtəpə Melioservis İdarəsi tərəfindən bu il İmişli



rayonunun Ağammədli nov kanalında 1.2 km, rayon ərazisindən keçən digər kanalda isə 1 km beton üzlüyə alınma işləri nəzərdə tutulub. Bundan başqa İmişli rayonu ərazisində kollektorların lildən təmizlənməsi də plan üzrə həyata keçiriləcək.

Kollektorlar lildən təmizlənir. Dilqəm Şərifov bildirib ki, Baş Şirvan Kollektorunun İstismarı İdarəsi ölkənin 7 rayonunda ümumilikdə 253000 ha torpaq sahəsinə 2399 km kollektor-drenaj şəbəkəsi vasitəsilə xidmət edir. Bu şəbəkədən 843 km-i təsərrüfatlar arası, 1556 km-i təsərrüfat daxili kollektor, o cümlədən 775 km açıq, 781 km-i isə qapalı şəbəkədir. İdarənin balansında 2898 ədəd qurğular mövcuddur ki, həmin qurğulardan 932 ədədi körpü keçidlər, 3 ədədi hidrometrik postlardır. İdarənin balansında olan maşın mexanizmlər tərəfindən mütəmadi olaraq kollektor dren şəbəkəsində lildən təmizləmə işləri aparılır.

Nəticədə sahələrdə şoranlaşmanın qarşısı alınır və torpaqlar münbitləşir. Kollektorlarda lildən təmizləmə işləri sistemli şəkildə həyata keçirilir. Hazırda bu işlər idarənin xidməti ərazisinə daxil olan bütün kollektorlarda davam etdirilir.

Baş Şirvan Kollektorunun İstismarı İdarəsinin balansında 11 ədəd nasos stansiya mövcuddur ki, bu nasoslar vasitəsilə qrunt suları Xəzər dənizinə axıdılır. Nasosların sazlığına isə daim diqqət yetirilir. Bu günə qədər nasos stansiyalarda təmir işləri aparılıb, nasaz nasoslar dəyişdirilib. Bundan başqa balansda olan kollektorların təmiri də plana uyğun olaraq həyata keçirilir. Ümumiyyətlə görülən işlər nəticəsində şoranlaşmanın qarşısı alınır, torpaqlar meliorativ cəhətdən yaxşılaşdırılaraq əkinə yararlı vəziyyətə gətirilir.

Qeyd edək ki, Baş Şirvan Kollektorunun İstismarı İdarəsi Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Sabirabad, Hacıqabul və Salyan rayonlarında kollektor-drenaj şəbəkəsinə xidmət edir.

***Hüseyn İsgəndərov***



# Siyəzəndə sənaye və rabitə sahəsində artım olub

***2023-cü ilin yanvar-mart aylarında Siyəzən rayonunda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 5987,2 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilib ki, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə 13,6 faiz çox olub.***

Ümumi istehsalın 41,5 faizini sənaye məhsulları, 58,5 faizini isə sənaye xidmətləri təşkil edib. Məhsulun 11,1 faizi mədənçıxarma, 30,0 faizi emal, 54,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 4,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Qeyri-dövlət sektorunda istehsalın həcmi 1863,2 min manat təşkil etmiş və sənaye məhsulunun 31,1 faizini təşkil edib.

İstehlakçılara 5987,2 min manatlıq sənaye məhsulu göndərilmiş, 01 aprel 2023-cü il tarixinə sənaye müəssisələrinin anbarlarında 767,5 min manatlıq hazır məhsul ehtiyatı qalmış və sənayenin ümumi məhsulunun 12,8 faizini təşkil edib. Bununla yanaşı sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 948,4 min manatlıq məhsul mövcud olub.

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2023-cü ilin yanvar-mart aylarında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 27,0 faiz artaraq 249,2 min manat təşkil etmiş, xidmətlərin 228,3 min manatı (91,6 faizi) əhaliyə göstərilib. Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 2022-ci ilin müvafiq dövrünə nisbətən 21,6 faiz artıb.

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 90,0 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi 10,0 faiz təşkil edib.

Kamil Xəlilov, Siyəzən Rayon Statistika İdarəsinin rəisi

# Qanunsuz heyvan kəsimi məntəqələri aşkarlandı

***Qida Təhlükəsizliyi Agentliyi ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir kəsim məntəqələrinin təşkil olunması və qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması istiqamətində nəzarət tədbirlərini davam etdirir.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən ”Unikal”a verilən məlumata görə, mayın 3-də respublika üzrə fəaliyyət göstərən ət satışı və heyvan kəsimi məntəqələrində aparılan monitorinqlər zamanı Bakı şəhərində bir sıra nöqsanlar aşkar olunub.

Aşkarlanmış uyğunsuzluqlarla əlaqədar 6 heyvan kəsimi və ət satışı məntəqəsi ilə bağlı inzibati tədbir görülüb.

Baytarlıq-sanitariya ekspertizası aparılmadan heyvan kəsimi və ət satışı fəaliyyəti ilə məşğul olan və barələrində inzibati protokol tərtib edilmiş və ya qanunsuz metal konstruksiyaları sökülən məntəqələrin siyahısı ilə http://afsa.gov.az/az/media/news_details/4255 linkində tanış olmaq olar.

Qanunsuz heyvan kəsiminin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

# Putin Qırğızıstan prezidentini Moskvaya dəvət etdi



***Qırğızıstan prezidenti Sadır Japarov Qələbə paradında iştirak etmək üçün Moskvaya gələcək.***

"Unikal" xəbər verir ki, bu barədə dövlət başçısının mətbuat katibi Erbol Sultanbayev məlumat verib.

Qırğızıstan prezidentinin Rusiya prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya səfəri mayın 8-nə planlaşdırılıb. Ertəsi gün Qırğızıstan lideri Qələbə Günü şərəfinə Qızıl Meydanda keçiriləcək paradda iştirak edəcək.

***Gülayə***

# İranda etiraz edən daha 19 nəfər edam olundu

***İranda molla rejiminə qarşı etirazlar zamanı həbs edilənlərin edamı həyata keçirilir.***

"Unikal" İran mətbuatına istinadən xəbər verir ki, bu gün daha bir bəluc (Bəlucistan əyalətində etiraza qalxanlar belə adlandırılır - red.) məhbusunun edam hökmü icra olunub. Bununla da son beş gündə edam edilənlərin sayı 19-a çatıb.

Məlumata görə, onlar narkotik cinayətləri və qətllərlə bağlı ittihamlarla edam edilib. Asılan şəxslərdən ikisi qadın olub.

***Ağarza***

# "Kiyevin Kremlə hücumunun arxasında ABŞ dayanır" - Peskov

***"Ukrayna PUA-larının Kremlə hücumu hazırda araşdırılır".***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov deyib.

"Moskva bilir ki, Kiyev zərbələr üçün həm vasitələri, həm də hədəfləri Vaşinqtonun diktəsi ilə seçir. Moskva Rusiya xüsusi xidmət orqanlarının məlumatlarına əsaslanaraq Kiyevin Kremlə hücumda əli olduğunu hesab edir. Kiyevin Kremlə hücumunun arxasında Vaşinqton dayanır, ABŞ-ın Kremlə dronlarla hücum olunmasını rədd etmək cəhdləri gülüncdür",- deyə Peskov qeyd edib.

Həmçinin, Kreml hadisəni terror aktı adlandırıb.

# "Son 10 gündə 50 terrorçu məhv edilib" - Hulusi Akar

***"Son 10 gündə 50 terrorçu məhv edilib".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Türkiyə Silahlı Qüvvələri mayın 3-də Suriyanın şimalında növbəti əməliyyat keçirib: "Həmin əməliyyat nəticəsində 8 terrorçu zərərsizləşdirilib. Beləliklə, son 10 gündə məhv edilən terrorçuların sayı 50-yə çatıb".

# "İran pensiyaları ödəmək üçün adalarını sata bilər" - Səccad Padam

***"Yunanıstan təqaüdçülərinin tələblərini ödəmək üçün 100 ada satdı, tezliklə biz də bu vəziyyətlə qarşılaşacağıq".***

"Unikal" xəbər verir ki, bunu İran Əmək Nazirliyinin Sosial Sığorta xidmətinin Baş direktoru Səccad Padam deyib.

"Biz təqaüdçülərin maaşını ödəmək üçün Kiş, Qeşm və Xuzistanı satmalı ola bilərik. 3 milyon barel nefti sanksiyalarsız satsaq və tam məbləği alsaq belə, hələ də pensiyaçıların böhranını həll edə bilmərik. 5 ayda 85 min milyard tikinti işləri görməli idik, ancaq bunun yalnız 20 faizi icra olunub", - deyə Baş direktor qeyd edib.

***Ağarza Elçinoğlu***

# Türkiyə seçkiləri: 1 milyondan çox insan səs verib

***Türkiyə xaricində prezident və parlament seçkiləri üçün səs verən şəxslərin sayı 1 milyonu keçib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Ali Seçki Komissiyası məlumat yayıb.

İndiyədək ölkə xaricindəki seçicilərin 1 milyon 7 min 165 nəfəri səsvermə hüququndan istifadə edib.



Səsvermə mayın 14-də saat 17:00-da gömrük qapılarında, mayın 9-da isə xarici nümayəndəliklərdə başa çatacaq. Xaricdə seçici siyahısında qeydə alınmış seçicilər 24 saat ərzində səs verə bilərlər.

Xaricdə 3 milyon 416 min 98 seçici səs verəcək. İlk dəfə səs verəcək seçicilərin sayı 277 min 646 nəfərdir.

Qeyd edək ki, Türkiyə xaricində səsvermə aprelin 27-də başlayıb.

# "Ermənistan və Azərbaycanın danışıqlarda irəliləyişini alqışlayırıq" - Baydenin müşaviri

***Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramovun Ağ Evdə görüşünün keçirilməsi çox xoşdur.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan Ermənistan və Azərbaycan XİN rəhbərlərinin görüşündən sonra özünün "Twitter"də yazıb.

"Biz Ermənistan və Azərbaycanın danışıqlarda irəliləyişini alqışlayırıq və dialoqu davam etdirməyə çağırırıq. Sabit və ədalətli razılaşma hər iki ölkə və regionlar üçün imkanların açılması üçün əsas olacaq", - deyə Ceyk Sallivan bildirib.

***Gülayə Mecid***



# Rusiya XİN Kremlə hücumla bağlı bəyanat yaydı

***Rusiya Xarici İşlər Nazirliyi Moskva Kremlinə qarşı terror aktı cəhdi ilə bağlı bəyanat yayıb.***

"Unikal" gazeta.ru-ya istinadən xəbər verir ki, bəyanatda mayın 3-nə keçən gecə Moskva Kremlinə qarşı pilotsuz uçuş aparatlarının köməyi ilə törədilmiş terror aktlarına cəhdlər qətiyyətlə pislənilib.

Bildirilir ki, Ukrayna Silahlı Qüvvələrinin terror və təxribat fəaliyyəti görünməmiş şəkildə vüsət alır:



"Onların arxasında mülki infrastruktura və dinc əhaliyə qarşı terror üsullarından istifadəni uzun müddət və şüurlu şəkildə dəstəkləyən Kiyev rejiminin dayandığı şübhəsizdir. 8 oktyabr 2022-ci ildə Krım körpüsünün partladılması, Bryansk, Belqorod və Rostov vilayətlərində qeyri-hərbi hədəflərə hücumlar, çoxsaylı təxribatlar. İndi Moskva. Bu cinayətin ağırlığını Moskva Kremlinin Rusiya dövlətinin başçısının iqamətgahı olması daha da dərinləşdirir. Rusiya prezidentinin həyatına 9 May Qələbə Paradı ərəfəsində sui-qəsdin olması isə neonasist Ukrayna hakimiyyətinin hərəkətlərinin xüsusi həyasızlığını göstərir".

# Zelenski rusların Xersonda törətdiyi qətliamın görüntüsünü paylaşdı

***Rusiya ordusu ötən gecə Ukraynanın Xerson vilayətini ağır artilleriyadan, "Qrad"dan atəşə tutub.***

"Unikal" xəbər verir ki, bu barədə Xerson şəhər meri Oleksandr Prokudin məlumat yayıb.

Onun sözlərinə görə, hadisə nəticəsində 23 nəfər ölüb, ikisi uşaq olmaqla 46 nəfər yaralanıb.

Bundan əlavə, Ukrayna prezidenti Volodimir Zelenski "Instagram" hesabında rusların Xersonu atəşə tutmasından sonrakı vəziyyəti paylaşıb. Videoda rusların atəşi nəticəsində ölən və yaralanan insanların görüntüsü əks olunub.

# İstanbulda İŞİD-ə qarşı əməliyyat - 8 nəfər tutuldu

***İstanbulda İŞİD terror təşkilatına qarşı əməliyyat keçirilib.***

"Unikal" xəbər verir ki, Türkiyə Baş Prokurorluğunun keçirdiyi əməliyyat nəticəsində 8 nəfər tutulub. "Prokurorluğun Terror və Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Bürosu tərəfindən aparılan araşdırmalar nəticəsində İŞİD terror təşkilatı tərkibində fəaliyyət göstərdiyinə dair kəşfiyyat məlumatları olan 11 şübhəli müəyyən edilib. Müəyyən edilən şübhəlilərin tutulması üçün əməliyyat keçirilib. Əməliyyat nəticəsində 8 nəfər tutularaq saxlanılıb. Digər şübhəlilərin axtarışı davam edir", - rəsmi açıqlamada qeyd olunub.

***Ağarza Elçinoğlu***

# İdman məktəblərində kimlər məşq keçə bilər?



***İdman məktəblərində kimlərin məşq keçə biləcəyi açıqlanıb.***

Elm və Təhsil Nazirliyindən bildirilib ki, qurumun tabeliyində fəaliyyət göstərən uşaq-gənclər idman və idman-şahmat məktəblərində məşqçi-müəllimlərin işə qəbulu "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif İxtisas Sorğu Kitabçası" nın (hissə 77) tələblərinə uyğun olaraq tənzimlənir.

Belə ki, məşqçi-müəllimlər təlim-tərbiyə metodlarını, idmanla məşğul olanların fiziki hazırlıq səviyyəsini, idman məşqlərinin aparılma metodlarını, təhlükəsizlik texnikası qaydalarını, sanitar-gigiyena normalarını, ilk tibbi yardımın göstərilməsi qaydalarını bilməlidirlər.

Həmçinin ödəniş dərəcələrinə ixtisas tələbləri da mütləqdir. Həmin tələblər aşağıdakılardır:

- 8-ci dərəcə: ümumi orta təhsil və "İdman ustası" adı;
- 9-cu dərəcə: orta ixtisas təhsili və 5 ilə qədər iş stajı;
- 10-cu dərəcə: orta ixtisas təhsili və 5 ildən az olmayaraq iş stajı və ya ali bədən tərbiyəsi təhsili və 5 ilə qədər iş stajı;
- 11-ci dərəcə; ali bədən tərbiyəsi təhsili və II ixtisas kateqoriyası;
- 12-ci dərəcə: ali bədən tərbiyəsi təhsili və I ixtisas kateqoriyası;
- 13-cü dərəcə: ali bədən tərbiyəsi təhsili və yüksək ixtisas kateqoriyası; və ya rəhbərliyi altında iki və daha çox məşqçi-müəllim çalışdıqda və ayrı-ayrı idman növləri üzrə metodiki rəhbərlik etdikdə - baş məşqçi-müəllim.
- 14-cü dərəcə: ali bədən tərbiyəsi və ya orta ixtisas təhsili və "Azərbaycan Respublikasının əməkdar məşqçi-müəllimi" fəxri adı olan idman üzrə məşqçi-müəllim və ya baş məşqçi-müəllim.

Qeyd edək ki, Sumqayıt şəhərində tanınmış idmançı, 1994-cü il təvəllüdlü Mehman Xəlilov məşq zamanı tələbəsi olan 7 yaşlı Fərid Bakarova qarşı təhlükəli fənd işlədib. Nəticədə F.Bakarov aprelin 29-da Sumqayıt Şəhər Uşaq Xəstəxanasında ölüb.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. M.Xəlilov həbs olunub.

# Şəhid Xəyal Əhədzadənin xatirəsinə idman yarışı

***2022-ci il sentyabrın 12-də Ermənistan silahlı qüvvələri tərəfindən sərhəddə törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı 5 hərbiçimiz şəhid oldu. Bu müqəddəslərdən bir Azərbaycan Ordusunun giziri Xəyal Əlövsət oğlu Əhədzadədir. Milyonların ürəyində özünə əbədi yer edən Vətənin qəhrəman oğlu 1998-ci il avqustun 21-də Lənkəran rayonunun Nərimanabad qəsəbəsində dünyaya göz açıb. Lənkəran Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi olan Xəyal boks üzrə məktəblilər arasında 40 kiloqram çəki dərəcəsində Azərbaycan çempionatının qalibi, eləcə yeniyetmələr arasında ölkə çempionatının iştirakçısı olub.***

Xəyal İkinci Qarabağ müharibəsində Murovdağ, Cəbrayıl, Füzuli və Şuşa istiqamətində gedən döyüşlərdə savaşıb. Haqq savaşımızda misilsiz şücaət göstərdiyi üçün "Azərbaycan Bayrağı" ordeni, Cəbrayılın, Füzulinin, Şuşanın, Kəlbəcərin azadlığına görə medallarla təltif edilib. 2022-ci il sentyabrın 12-də Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı isə göstərdiyi qəhrəmanlıq ölümündən sonra III dərəcəli "Rəşadət" ordeninə, "Vətən uğrunda" medalına layiq görülüb.



Bu günlər Lənkəran Olimpiya İdman Kompleksində şəhid Xəyal Əkbərzadənin əziz xatirəsinə həsr olunmuş sərbəst güləş idman növü üzrə uşaq və yeniyetmələr arasında Lənkəran rayon açıq turniri keçirilib. Rəsmi açılışda əvvəlcə bütöv Azərbaycan naminə canından keçib şəhidlik zirvəsinə ucalan qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla anılıbdır.

Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə çıxışında deyib:- Cari ildə həm ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə silsilə tədbirlərin, həm də Vətən şəhidlərinin xatirəsinə həsr olunan idman yarışların təşkilinə idarə tərəfindən həmişə böyük dəstək vardır. Dahi şəxsiyyət, Azərbaycan xalqının xilaskarı, ümummilli lider Heydər Əliyevin əsası qoymuş dövlət idman siyasəti müasir dövrdə dövlət başçısı İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Lənkəran Şəhər Gənclər və İdman İdarəsi də bu siyasətin rayonda düzgün təşkilinə səy göstərir. Onu da deməyi vacib sayıram ki, yarışın təşkilində bir daha şəhidlərin əziz xatirəsini yad etmək, sərbəst güləş idman növünün inkişafı, eləcə onun təbliği, idmanın kütləviliyinə nail olmaq, müvafiq idman növü üzrə bacarıqlı idmançıları üzə çıxartmaqdır.

Digər çıxış edən natiqlər yarışla bağlı fikirlərini bölüşüb, iştirakçılara uğurlar arzulayıb.

2009-2010-2011-ci il və 2012-2013-2014-cü il təvəllüdlü uçaq, yeniyetmələr arasında keçirilən açıq rayon turnirinə Bakı, Gəncə şəhərindən, Şamaxı, Cəbrayıl, Astara, Masallı, Biləsuvar, Cəlilabad və Lənkəran rayonundan 300 idmançı qatılıb. Yekunda yarışda birinci yeri tutanlara diplom və kubok, 2 və 3-cü pilləyə qalxanlara isə diplom təqdim olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***



# "Bəlkə də bu sözlərimə görə AFFA rəhbərliyi məndən inciyəcək"

***"Bu gün Premyer Liqada hakimlik elə də yaxşı səviyyədə deyil".***

Bu sözləri Qol.az saytına geniş müsahibəsində Peşəkar Futbol Liqasının keçmiş prezidenti Ramin Musayev deyib.

O, hazırda Premyer Liqamızın matçlarına təyinat alan hakimlərin qərarlarından narazılığını ifadə edib: "Bu mövzuda itirən futbolçular olur. Əziyyət çəkirlər. Hərdən bunu deyəndə bəzi insanlar cavab verirlər ki, futbolçular 90 dəqiqə qaçırlar də. Bunu deyən adam gəlsin, özü 15 dəqiqə qaçsın. Hakimlərlə çalışmaq lazımdır. Bəlkə də AFFA rəhbərliyi məndən inciyəcək. Amma inciməli deyillər. Çünki gərək, düzünü deyəsən. Bu gün bizim Hakimlər Komitəsinin sədri əcnəbidir. Niyə bizim yerli keçmiş hakimlərimizdən istifadə etmirik? Axı, onlar bilir ki, bu hakim kimdir, futbola hansı niyyətlə gəlir. Eləsi var, pula görə, eləsi də var, futbolu sevir deyə gəlib. Bunların hamısı böyük məna kəsb edir. Bu gün futbola rəhbərlik etməyə nə var ki? Mən "Neftçi"də işləyəndə oyun başa çatırdı, gecə saat 2-yə qədər kabinetdə müzakirə gedirdi. Çünki bir hakim küncdən zərbəni düz verməmişdi. Bu komandaya verilməli idi, o birinə verilmişdi. Amma bu gün təmiz penalti təyin olunmur, təmiz qol qeydə alınmır. Heç bundan danışan varmı? Allaha and olsun, hakim qərarlarına görə üstümə silahla gəlmişdilər. Hakim oyuna çıxanda ona hücum edirdilər. Şükürlər olsun, bunların qarşısını aldıq".

Qeyd edək ki, R.Musayev geniş bir müsahibədə bir çox maraqlı fikirlər səsləndirib. Müsahibəni tezliklə Qol.az saytından oxuya bilərsiniz.

# Aleks de Souza uğursuz nəticələrə görə istefaya göndərildi

***Braziliya B seriyası təmsilçisi "Avai" baş məşqçisi Aleks de Souza ilə yolları ayırıb.***



Qol.az klubun saytına istinadən xəbər verir ki, mütəxəssislə müqavilə qarşılıqlı razılaşma əsasında ləğv edilib. Buna komandanın uğursuz nəticələri səbəb olub.

Qeyd edək ki, de Souza 2023-cü ilin yanvarından "Avai"ni çalışdırırdı. Onun rəhbərliyi altına komanda 18 rəsmi matçda 6 qələbə qazanıb, 3 dəfə heç-heçə edib, 9 dəfə uduzub. Komanda son olaraq dünən öz meydanında "Vila Nova"ya 0:3 hesabı ilə məğlub olub.